QƏHRƏMAN DƏRZİ

Şirzad Məmmədli

Qəhrəman Dərzi

İlk qədəmlər...

Öncə Muxtar Gülməti oğlu dedilər, ustalaşdıqca, tanındıqca, yaşlaşdıqca yaddaşlarda Dərzi Muxtar kimi qaldı.

Atam-Muxtar Gülməmməd oğlu Məmmədov ictimai-siyasi xadim, ya da yüksək vəzifə sahibi olmadığı üçün onu ölkə çapında çoxları tanımaya bilər. Amma yaşadığı bölgədə sənəti ilə ad qazanmışdı-Dərzi Muxtar. Zamanında rayon mərkəzində və Xınna dərəsində daha çox tanınıb. Öncə yaxşı sənətkar kimi, sonra el-obanın hoyuna çatmağına, cəsarətli və doğrucul olmağına, canıyanıcıllığına görə fərqlənib.

Bizim basalaqda elin xeyir-şər dəftərində, ya da bir siyahı tutanda atamın adını Muxtar Gülməti, bir az qıraq kəndlərdə Dərzi Muxtar kimi yazırdılar. Köhnə kişilər isə onu çox vaxt "a Mətioğlu" deyə çağırırdılar. Elə bizim özümüzü, qardaşlarımı, əmim oğlanlarını da Mətioğlu deyib səsləyərdi çox adam. Görünür, insanlar qan yaddaşlarına daha doğma olan qədim türk adına–Məti sözünə sonralar düşünülüb əlavə edilmiş Gül kimi xoş sözləri belə qısqanclıqla qarşılayırmışlar ki, əzəli saflıq qorunsun.

Şərəf oğlu Gülməmmədin (Gülməti) ortancıl övladı olan atam rəsmi sənədlərə əsasən 1924-cü il doğumludu. O vaxt sənədləşmə işi o qədər də dəqiq aparılmırmış deyə çox adamın yaşını və doğum tarixini sonradan, sadəcə, üzünə baxıb təxmin edərlərmiş.

Atamın ilk pasportunda doğum yeri kimi Qazax rayonu, Keşkənd sovetliyi, Çobansığnaq kəndi yazılıb. Bizim üçün doğma olan Keşkənd hazırda Gədəbəy rayonuna aid olsa da, vaxtı ilə, daha dəqiq desək, 1964-cü ilə qədər Tovuzun (rayon 1930-cu ildə yaradılıb) inzibati ərazi bölgüsünə daxil olub.



Sarıtala, Çobansığnaq, Nəmxoş, Qaraboyunlar, Dondarlı, Qoşabulaq, Totuqlu, Pərizamanlı, Ağacqala, Samanlıq, Moruxlu, Nərimankənd kəndləri

Kəndimiz Tovuz rayonunun dağlıq hissəsində, dəniz səviyyəsindən azı 1500 metr yüksəklikdə Gədəbəy rayonu ilə sərhəddə yerləşir. Hazırda rəsmi olaraq Tovuz rayonunun Sarıtala inzibati ərazi vahidində Çobansığnaq kəndi adlanır. Qonşu kəndlərdən olan yaşlı adamlar bizim kəndə çox vaxt Novruzlu da deyirdi

Qaradamda öyrədilən hesab

1929-cu illərdə bizim tərəflərdə məktəb ilk dəfə ancaq Keşkənddə olub. Mənim əsas bilgi mənbəyim olan Keşkəndli Əli əmi məşhur Rəcəbli nəslindəndi, atamla yaxşı dostluqları olub. Ona el arasında briqadir Əli də deyirlər. Əli əminin məlumatına görə, məktəb öncə dörd sinifdən ibarət olmaqla Hasan kişinin evində

təşkil olunub. Bu ev-məktəb o zamanın şərtlərinə uyğun qaradam olub. Qaradam tikmək üçün insanlar yamacdakı kalafa yerini təxminən 1 metr dərinlikdə qazıb, enini və uzununu adambaşına uyğun planlayırlarmış. Sonra dörd küncünə və yan tərəflərin ortasına yoğun dirəklər basdırır, onları haçalarına tirlər qoymaqla birləşdirir və belini pərdilərlə qabarıq şəkildə döşəyirmişlər. İşıq düşməsi və tüstü çıxması üçün baca da qoyulduqdan sonra növbəti mərhələdə pərdinin üstü yarpaqlı ağac budaqları ilə tam örtülür, ən axırda üstü az qala 40-50 sm qalınlığında torpaqlanırmış. Ətrafdakı Sarıtala, Çobansığnaq, Nəmxoş, Qaraboyunlar, Dondarlı, Qoşabulaq, Totuqlu, Pərizamanlı, Ağacqala, Dağ Tatar, Dağ İrmaşlı, Samanlıq, Moruxlu, Nərimankənd kəndlərinin məktəbyaşlı uşaqları oxumaq üçün bax bu məktəbdən, Keşkənddəki qaradamdan başlayıblar. Nəhayət, 1930-31–ci illərdə hökumət hazırda Əmir kişinin dəyirmanı olan yerdə bir anbar və onun da baş tərəfində qara daşdan klub tikib. Əvvəl dördillik, sonralarsa yeddiillik olmuş məktəb bu kluba köçürülüb. Atam yeddinci sinifə qədər latın əlifbası ilə bu məktəbdə oxuyub. Akademiklər Firudin Köçərli və Tofiq Köçərli, professor Bəşir Əhmədli kimi elimizin qabiliyyətli insanları məhz bu məktəbdə dərs almışlar.

Hərbi biletindəki qeyddən görünür ki, 7 illik məktəbi 1938-ci ildə bitirib. Məktəbi bitirəndən sonra yaxşı oxumağına baxmayaraq, əksəriyyət kimi, imkan olmadığından davam edə bilməyib. Həm də o vaxtlar ucqar dağ kəndlərində oxumaq eşqinə düşmək və böyük şəhərlərə getmək, sadəcə, xəyal imiş. Stalinin 37-ci il repressiyaları dağlara da dağ çəkirmiş. Buralarda da varlı-kasıb demirmiş, xoşuna gəlməyəni var-yoxdan çıxarır, sözünə baxmayanı isə tüfəngin qabağına qatırlarmış. İldə bir neçə dəfə var-dövləti əlindən alınan, soğan kimi soyulan camaatın dərdi ölmə-diril yaşamaq olub. Gecə-gündüz kolxozda işləyən, aşırı basqı altında çalışan adamlar üçün şəhər nədi, adicə Zəyəmə, yaxud Qovlara getmək böyük bir əməliyyat imiş, bir neçə gün əvvəl plan-proqram qurulub, tədbir tökülməliymiş. Hesab elə, dünyanın o başına gedəcəksən, at, araba, azuqə lazımdı, bu da hər adamda varıydımı ki. Hələ bu şükürlüymüş. Bir azdan daha betər olacaq, gerisindən heç Allah da saxlaya bilməyəcəkmiş, araya Böyük Dava düşəcəkmiş...

Qanlı Savaş dönəmi

Atamın hərbi biletinin aşağıdakı səhifəsində belə yazılıb: *Tovuz rayon hərbi komissarlığının çağırış komissiyası hərb üçün yararlı olduğunu təsdiq edib. 1942-ci ilin avqustunda həqiqi hərbi xidmətə çağırılıb və hərbi hissəyə yola salınıb.*


2

II. Отношение к военной службе

2. Призывной комиссией при Кауэском
Раионном
военном комиссариате
Аз.ССР
области (республики) признан
годен к строев. службе
(указать степень годности к военной службе)
призван на действительную военную службу и направлен
в часть „ ” августа 1942 года.
М. П. Военный комиссар
(личная подпись)

Onun müharibəyə aparıldığı vaxtlar Qafqazda gərgin döyüşlər gedirmiş. Danışırdı ki, ilk aylarda Şimali Qafqaz bölgəsində olub. Söhbətlərində Tuapse, Novorossiysk, Mozdokun adını çəkdiyi yadımdadı. Kerç boğazı haqda da danışırdı.

Hərbi biletində öncə 112-ci, daha sonra müharibənin sonunadək 245-ci artilleriya alayında döyüşdüyü qeyd edilir. 112-ci alayda 1942-ci ilin avqustundan 1943-cü ilin fevralına kimi olub.

112-ci alaydan başlayan döyüş yolu

1942-ci il avqustun 2-də SSRİ Silahlı Qüvvələrinin Baş Komandanlıq Heyətinin əmri ilə 5-ci paraşüt-desant korpusundan 39-cu qvardiya atıcı diviziyası, onun tərkibindəki 7-ci hava-desant briqadasından isə 112-ci qvardiya atıcı alayı formalaşdırılıb. Komandiri polkovnik-leytenant Leşenin Vasili Andreyeviç olan bu

alay yarandığı ilk günlərdə-avqustun əvvəllərində Şimali Qafqaz bölgəsindəymiş. 1942-ci il avqustun 6-da 1-ci qvardiya ordusunun tabeliyinə verilib və təxminən bir ay sonra, sentyabrın sonlarında Stalinqrad ətrafında döyüş əməliyyatlarına hazırlaşan zaman 62-ci ordunun tərkibinə daxil edilib. Oktyabrın 1-də gecəikən 39-cu diviziya Stalinqrada köçürülüb. Həmin vaxt 62-ci ordunun qərargah rəisi general-mayor N.İ.Krılov yazırmış ki, "*O gecə...yalnız bir alay-112-ci qvardiya alayı keçə bildi. Keçid itkisiz oldu ki, bu da nadir uğur sayıla bilər*."[1]

112-ci alay haqda məlumat

1942-ci ilin payızı savaşın ən kəskin və həlledici mərhələsi olub. Almanlar hələ may ayında Qırmızı ordunun Xarkov yaxınlığındakı hissələrini mühasirəyə almışdı. Kerç yaxınlığındakı məğlubiyyət isə sovet-alman cəbhəsinin bütün cənub qanadında vəziyyəti son dərəcə pisləşdirmişdi. Almanlar nəfəs kəsdirmədən yeni zərbələr endirib, 1942-ci il iyulun sonunda artıq Donu keçərək Rostovu ələ keçirməyə müvəffəq olublar. Alman qoşunları geniş

[1] https://histrf.ru/lenta-vremeni/event/view/nastuplieniie-sovietskikh-voisk-pod-stalinghradom

Kuban əraziləri boyunca sel kimi irəliləyirmiş. Qısa müddətdəcə Maykop bölgəsindəki böyük neft yataqları işğal olunub. 1941-ci ilin yayında olduğu kimi yenə sovetlər ölüm təhlükəsi ilə üz-üzə qalıb. Məhz bu son dərəcə gərgin vəziyyətdə- 1942-ci il iyulun 28-də Stalinin imzası ilə "*Bir addım da geri çəkilməmək*" əmri verilib.

Tarixin ən uzun və ən qanlı döyüşü

General-mayor Stepan Quryevin 39-cu diviziyası Stalinqradın Qırmızı Oktyabr zavodu ərazisində dörd ay ərzində şiddətli döyüş əməliyyatları keçirilib və döyüş meydanını inadla müdafiə edib. 39-cu qvardiya atıcı diviziyası düşmənin piyada və tanklarının çoxsaylı hücumlarına qarşı vuruşaraq ümumilikdə 10 minə yaxın nasist əsgəri və zabitini məhv edib. Amma canlı qüvvə və texnika sarıdan çox böyük itki verməklə faşistlər zavod ərazisinin bir hissəsini ələ keçirə biliblər. Diviziya komandiri general Quryev Stalinqraddakı döyüşlərin ilk günləri barədə yazırmış: *"İki gün ara vermədən, nəfəs dərmədən vuruşduq. İlk döyüş qızıl kimi xalqımız olduğunu göstərdi. Əsgərlər son güllə, son nəfəsədək vuruşdular."*

Fikrimcə, rus generalının döyüşçülər haqda dediyi bu xoş sözlərdə, tərifli ifadələrdə atamın da payı var. O, məhz bu 39-cu diviziyanın tərkibindəki 112-ci alayda vuruşurmuş. Hərbi sənədlərdə qeyd olunan məlumata görə, həmin vaxt top komandiri imiş. Tərif üçün demirəm, atam həqiqətən hesabı və xəritəni yaxşı bilirdi, tez hesablamağı əlüstü bacarırdı. Demək ki, Keşkənddə oxuyarkən qaradamda öyrədilən hesab qara gündə dadına çatacaqmış. Həm də cəld adam idi. Tanıyanlar bilir, çevik və zirək davranışları ilə seçilir, iti düşüncə tərzinə görə fərqlənirdi. Görünür, şişirtmədən sadaladığım cəhətlərinə görə top komandiri qoyublar. Yəqin ki, bu keyfiyyətləri olmasa bir döyüşçü kimi belə qanlı-qadalı döyüşlərdən sağ çıxa bilməzmiş.

Savaşın ilk vaxtlarında almanlar şəhərin 90 faizinə nəzarət edirmiş. Amma qışa doğru vəziyyət dəyişib, sovetlər Volqa çayının donmasından yararlanaraq şəhərin təchizatına müvəffəq olub. Almanlar üçün isə təchizat yolunda problem yaranmağa başlayıb. Sərt qış alman döyüşçülərini aclıq və donmaq təhlükəsi ilə

üzləşdirib. Hər iki tərəfdən milyonlarla insanın cəmləşdiyi, minlərlə tank, top, səmada bulud kimi uçuşan təyyarələrin amansız savaşa qatıldığı kiçik bir şəhərdə əlbəyaxa döyüşlər adi hal imiş. Təkcə Stalinqrad dəmiryol vağzalı 13 dəfə əldən-ələ keçib. Bəzən əsgərlər soyuqdan donmamaq üçün yüzlərlə meyitdən süni sığınacaq yaratmaq məcburiyyətində qalıblar.

Ən ağır döyüşlərdə, məsələn, zavodun elevator deyilən bir yerində az qala 3-4 həftə döyüş gedib və ərazidəki əsgərlər təslim olmayıblar. Nəhayət, sentyabrın sonlarında almanlar elevatordakı əsgərlərin hamısını məhv edərkən dəhşətə gəliblər, içəridən cəmi...40 meyit tapılıb. Onların elevatorda saylarını 200-dən artıq bildikləri sovet əsgərləri cəmi 40 nəfər imiş. Bu səhnəni görən alman generalı təəccübünü gizlədə bilməyib: "*Əgər sovet əsgərləri hər yerdə belə döyüşsələr, bizimkilərdən biri də Almaniyaya geri qayıda bilməyəcək*"[2].

Şiddətli küçə döyüşləri bəzən hətta eyni binanın ayrı-ayrı mərtəbələri uğrunda gedirmiş. Faşist əsgərlərindən biri anasına məktubunda yazırmış: "*Ana, dünən 3-cü mərtəbədə mətbəx uğrunda döyüşü başa çatdırdıq, sabah qonaq otağı uğrunda savaşacağıq*".

Stalinqrad döyüşlərində almanlar və sovet əsgərləri arasında qəribə məqamlar, hətta həmrəylik də yaranıbmış. Təyyarələrdən atılan ərzaqlar sovetlərin cinahına yaxın düşəndə almanlar atəş açmırlarmış. Ərzaq bağlamaları faşistlərin səngərlərinə yaxın düşəndə isə sovetlər onları vurmurmuş.

Stalinqradda qəhrəmanlıq göstərən Azərbaycan əsgərlərinin şücaətinə isə ruslar da təəccüb ediblər. Şəhər ətrafında gedən döyüşlərdə Həzi Aslanovun başçılıq etdiyi 55-ci tank briqadası Stalinqrad-Salsk dəmir yolunu tutmaqla almanları əsas magistraldan məhrum edib. Aslanovun döyüşçüləri Kotelnikovo yaxınlığındakı hərbi əməliyyatlarda düşmənin 30 əks-hücumunu dəf edib, 30 tank, 50 avtomobili sıradan çıxarıb, bir batalyon piyada qoşunu-2000-ə yaxın faşist əsgərini öldürüblər. Göstərdiyi şücaətə

[2] https://publika.az/news/bilgi/61716.html

görə polkovnik-leytenant Aslanova 1942–ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adı verilib.

Əlbəttə, Stalinqrad uğrunda döyüş hərb tarixinin mühüm səhifələrindən biridi. Strateji və taktiki planlar qurmaq baxımından, eyni zamanda, insanların ən çətin və az qala dözülməz şəraitdə necə qəhrəmanlıqla vuruşması çox önəmlidi. Buraya sovetin 7 ordusu cəmlənibmiş, almanların isə hərbi qüvvələrinin əhəmiyyətli hissəsi bu savaşa cəlb olunubmuş. Bəs bu adi bir əyalət şəhəri uğurunda tərs inad göstərməyin əsl səbəbi nə imiş?

Niyə məhz Stalinqrad?

Faşistlərin baş ideoloqu Göbbels 1942-ci il martın 20-də öz gündəliyində yazırmış ki, Fürer öncə Qafqazı tutmaq istəyirdi. Moskvanı işğal edə bilməyəndən sonra Hitler əvvəlki-müharibəyə başlamazdan öncəki "*Blau*" planına qayıdır və 1942-ci ilin yayında Qafqazın neft yataqlarını ələ keçirməyə qərar verir. Bu planda hətta Bakının tutulması tarixi də müəyyən olunubmuş: 25 sentyabr 1942-ci il. Bizə nağıl kimi görünən planda Bakının gələcək idarəetmə sistemi, neft hasil etmək üçün xüsusi departament yaradılması da nəzərdə tutulurmuş.

1942-ci ilin yayında isə Hitler belə deyirmiş: *"Əgər mən Maykop və Qroznı neftini əldə edə bilməsəm, bu müharibəni dayandırmaqdan başqa çıxış yolum qalmayacaq".*

Deməli, Stalinqrada dəlicəsinə cummaqda strateji məqsədin iki başı olub. Öncə Rusiyanın neftlə təchizatına əngəl yaratmaq, ikincisi alman qüvvələrinin neft ehtiyaclarını təmin etmək üçün Bakını ələ keçirmək.

Hitlerin məqsədini bilən Stalin Xalq Neft Sənayesi Komissarının müavini, Bakılı Nikolay Baybakova deyir:

-Yoldaş Baybakov, Hitler Qafqaza can atır. Elə eləmək lazımdır ki, almanlara bir damla da neft çatmasın. Nəzərə alın ki, əgər siz almanlara bircə ton da neft saxlasanız sizi güllələyəcəyik.

Baybakovun yazdığına görə Stalin otaqda bir az gəzişdikdən sonra əlavə edib: *"Əgər siz neft mədənlərini vaxtından əvvəl məhv etsəniz, almanlar oraya gəlib çatmasalar və biz yanacaqsız qalsaq... yenə də sizi güllələyəcəyik..."*

Bu söhbətdən sonra N.Baybakov Dövlət Müdafiə Komitəsinin Qafqaz regionunda neft mədənlərinin məhv edilməsi üzrə müvəkkili təyin edilir. Növbəti gün Qafqaz neft mədənlərində xüsusi işlərin təşkili üzrə mütəxəssislər qrupu yaradılır, Xalq Daxili İşlər Komissarlığının partlayış sahəsində peşəkarları bu qrupa cəlb olunur.

Hitlerin direktivi

45-ci direktiv, Fürerin baş qərargahı, 23.7.1942-ci il.

...3. Tərkibində əsasən tank birləşmələri və mexanikləşdirilmiş birləşmələr olan qrup eyni zamanda cinahları təmin etmək məqsədi ilə bir hissə ayırıb onları Şərq istiqamətinə yönəltsin, həmin qrup Qroznı rayonunu tutmalı və həmin qüvvələr hərbi Osetiya və hərbi Gürcüstan yolunu imkan daxilində aşırımlarda bağlamalıdır. Son nəticədə Xəzər dənizi boyunca zərbə ilə Bakı rayonunu tutmalıdır.

İtaliya Alp korpusu "A" ordu qrupuna veriləcək. Bu əməliyyatlar üçün "A" ordu qrupuna kodlaşdırılmış "Edelveys" adı verilir.

Tam məxfi. Yalnız komandanlıq üçün.

Hitlerin bu direktivindən sonra alman qoşunları təxminən bir ay ərzində- 1942-ci il avqustun 21-də nasist bayrağını Qafqazın və Avropanın ən yüksək nöqtəsi olan Elbrus dağının zirvəsinə taxırlar. Amma Qroznını və Bakı tutmaq məsələsi alınmır, Mozdokda güclü müqavimətlə rastlaşırlar.

1942-ci il sentyabrın 15-də Beriya, Tülenev, Bağırov və başqa yüksək çinli məmurların iştirakı ilə Zaqafqaziya cəbhəsi Hərbi Şurasının iclası keçirilir.

Tam məxfi

Zaqafqaziya cəbhəsi Hərbi Şurasının qərarı, 15 sentyabr 1942-ci il

1. Mahaçqala, Dərbənd və Bakı müdafiə xətlərinin tikilməsi birinci dərəcəli vəzifə hesab edilsin.

...3. Müdafiə xətlərinin tikintisinin başa çatma vaxtı aşağıdakı kimi müəyyən edilsin:

a) Mahaçqala müdafiə xətti 25 sentyabr 1942-ci il

b) Dərbənd müdafiə xətti 1 oktyabr 1942-ci il

c) Bakı müdafiə xətti 20 oktyabr 1942-ci il

Faşistlərin Qafqaza doğru sürətlə irəliləməsi Amerika və Britaniyanı da ciddi narahat etməyə başlayır. Onlar artıq Bakını xilas etmək, ən başlıcası isə Bakı neftinin faşistlərə çatmasının qarşısını almaq məqsədi ilə konkret hərbi yardım təklif edirlər.

Stalinin müttəfiqlərlə yazışması

Baş nazir cənab Uinston Çörçilin cənab Stalinə son dərəcə məxfi və şəxsi məktubu[3]

30 sentyabr 1942

...almanlar artıq Xəzər dənizində hərbi dəniz əməliyyatlarına rəhbərlik edəcək admiralı təyin ediblər. Onlar özlərinə əsas hərbi-dəniz bazası kimi Mahaçqalanı seçiblər.

...Şübhəsiz, Siz bu tipli hücumlara artıq hazırlaşıbsınız. Mənə belə gəlir ki, Xəzərdə və Qafqaz döyüş cəbhəsində Sizin hərbi-hava qüvvələrinizin Amerikanlarla bizim köməyimizlə 20 Britaniya və

[3] https://azvision.az/news/60364/stalinin-baki-haqqinda-gizli-yazismalari-%E2%80%93-arasdirma-senedler.html

Amerika eskadriliyası ilə möhkəmləndirilməsi barədə Sizə dediyim plan getdikcə daha böyük əhəmiyyət kəsb edir.

İ.Stalin U.Çörçilə

3 oktyabr 1942-ci il

Sizə deməliyəm ki, Stalinqrad rayonunda bizim vəziyyətimiz sentyabrın ilk günlərində pisləşdi. Almanların aviasiya ehtiyatları daha çox oldu və onlar bu qüvvələri Stalinqrad rayonunda cəmləşdirdilər və havada ikiqat üstünlük qazandılar. Quru qoşunlarını müşayiət etmək üçün bizim qırıcı təyyarələrimiz çatışmadı...

Artıq oktyabr ayında Hitler anlayır ki, Qafqaz neftini ələ keçirmək planları puça çıxıb. Onda qərara alınır ki, neft mədənləri bombardman edilsin, yandırılsın. Yenidən Bakı üzərini qara buludlar alır.

U.Çörçil İ.Stalinə

8 noyabr 1942

Şübhəsiz, Sizə məlumdur ki, Hitler Bakını tutmaq ümidini itirdiyindən şəhəri hava zərbələri ilə dağıtmağa çalışacaq.

Xahiş edirəm mənim məlumatıma inanasınız.

İ.Stalin U.Çörçilə

9 noyabr 1942

...Bakı haqqında xəbərdarlığınıza görə təşəkkür edirəm. Düşməni dəf etmək üçün tərəfimizdən tədbirlər görülür.

ставляет 20 000 человек; захвачено танков — 350; орудий — 400; средств механического транспорта — несколько тысяч. Наши передовые мобильные силы находятся к югу от Мерса-Матрух. Восьмая армия продвигается.

№ 83

Получено 8 ноября 1942 года.

У. ЧЕРЧИЛЛЬ И. В. СТАЛИНУ *

Без сомнения, Вам известно, что, когда Гитлер потеряет надежду взять Баку, он будет пытаться разрушить его путем воздушных атак.

Прошу Вас верить моему сообщению.

№ 84

ЛИЧНОЕ ПОСЛАНИЕ ПРЕМЬЕРА СТАЛИНА ПРЕМЬЕР-МИНИСТРУ ЧЕРЧИЛЛЮ

Нас очень радуют Ваши успехи в Ливии и успешное начало операции «Факел» [23]. Желаем дальнейших успехов.

Благодарю за предупреждение насчет Баку. Нами принимаются меры отпора.

9 ноября 1942 года.

№ 85

ЛИЧНОЕ И СЕКРЕТНОЕ ПОСЛАНИЕ ОТ ПРЕМЬЕР-МИНИСТРА г-на УИНСТОНА ЧЕРЧИЛЛЯ ПРЕМЬЕРУ СТАЛИНУ

1. Весьма благодарен за Ваши послания от 8 и 10 ноября, которые я получил.

2. Я назначил маршала авиации Дрэммонда в качестве представителя Великобритании для штабных переговоров между советскими, американскими и британскими представителями по поводу предварительных мероприятий для использования 20 британских и американских эскадрилий на Вашем Южном фронте. Маршалу авиации Дрэммонду приказано немедленно выехать из Каира в Москву с небольшой группой штабных офицеров.

F.Ruzvelt İ.Stalinə

16 dekabr 1942

Mənə aydın deyil ki, Qafqaza Amerika aviasiyasının köməyi barədə bizim təklifimizə münasibət sahəsində nə baş verib? Mən Amerika pilotları və heyətləri ilə birlikdə aviasiya birləşməsi göndərməyə tam hazıram.

...Xahiş edirəm istəyiniz barədə mənə imkan daxilində tez məlumat verin, çünki mən bacardığım hər şeylə kömək etmək istəyirəm.

...Mən əsasən özlərinin Qafqaza qədər uçub gələ biləcək bombardmançı təyyarələri nəzərdə tuturam.

İ.Stalin F.Ruzveltə

18 dekabr 1942

Sizin kömək etməyə hazır olduğunuza görə çox təşəkkür edirəm. Uçuş heyəti ilə birlikdə ingilis-amerika eskadriliyası göndərilməsinə gəlincə, hazırda onların Zaqafqaziyaya göndərilməsi zərurəti aradan qalxmışdır.

...Əgər siz təyyarələrin, xüsusən qırıcı təyyarələrin uçuş heyəti olmadan-onlar Sizə indi çox lazımdır,-göndərilməsini sürətləndirsəniz, mən Sizə çox minnətdar olaram. Sovet aviasiyasının vəziyyəti elədir ki, təyyarəçilər həddindən artıq çoxdur, amma təyyarələr çatışmır.

Bütün bu illər ərzində Bakının neft hasilatında fasilə yaranmır. Bircə faktı xatırlatmaq kifayətdir ki, 1943-cü ilin iyul-avqust aylarında Kurskda gedən tarixin ən böyük tank döyüşlərinə Bakıdan göndərilən neftlə dolu dəmiryolu çənlərinin ümumi uzunluğu 1300 kilometr olub...

Qafqaz regionunda dəmir yolları faşistlər tərəfindən dağıdıldıqda, Bakı neftçiləri dünyada ilk dəfə yeni daşıma üsulu

kəşf ediblər: neft doldurulmuş müxtəlif iritutumlu çənlər Xəzər dənizinə buraxılıb, yedək gəmisi ilə Volqa çayı vasitəsilə daşınıb. Ancaq bütün bu fədakarlıqlar sonrakı dövrdə də sovetlərin Azərbaycana münasibətini yaxşılaşdırmayıb.



Stalinqrad döyüşlərində 39-cu qvardiya atıcı diviziyasının olduğu yerlər

Nəhayət, Stalinqrad savaşının son günləri. Uzun müddət mühasirə vəziyyətində döyüşən alman komandan Paulus bir gün əvvəl yanvarın 30-da şərəfləndirilib, Hitler ona general feldmarşal rütbəsi verib. Lakin bu əhəmiyyətsiz təltif almanları xilas edə bilməyib və yanvarın 31-də Paulus özü və rəhbərlik etdiyi cənub qrupu təslim olub. Fevralın 2-də isə general Ştrekerin komandanlıq etdiyi şimal qrupu silahı yerə qoymalı olub. Bununla da Stalinqrad döyüşü başa çatıb. 24 general, 2500 zabit, 91 mindən çox əsgər əsir düşüb. 7 min top və minomyot, 744 təyyarə, 166 tank, 261 zirehli maşın və 80 mindən çox avtomobil ələ keçirilib. Nasist Almaniyası ilə Sovet Rusiyası arasında indi Volqoqrad adlandırılan bu şəhər

uğrundakı döyüş 1942-ci ilin avqust ayının 21-dən 1943-cü ilin fevral ayının 2-dək, düz 199 gün davam edərək tarixə ən uzun sürən döyüş kimi düşüb.

Stalinqrad döyüşünün miqyası haqda təsəvvür yaranması üçün tərəflərin verdiyi itkiyə nəzər salaq.

SSRİ: 1,129,619 (478 741 ölü və itkin, 650 878 – yaralı və xəstə), 15 728 silah və minaatan, 4341 tank və özüyeriyən artilleriya qurğusu, 2769 təyyarə

Almaniya və müttəfiqləri: 1,078,775 (841 min nəfər ölü və yaralı, 237 775 nəfər - əsir), 2 min tank, 3 min döyüş və yük təyyarəsi

Sovetlərin Stalinqrad döyüşündə qazandıqları qələbə 1941-ci ildən başlayan tənəzzülü durdurmağa və strateji təşəbbüsü ələ almağa şərait yaratmaqla bərabər yeni genişmiqyaslı hücum hazırlığı və gələcəkdə almanların tam məğlub olması üçün ilkin şərt oldu. Müharibədə köklü dönüşün başlanğıcı SSRİ-nin beynəlxalq nüfuzunun güclənməsinə, belə bir ciddi məğlubiyyət isə Almaniyanın və onun silahlı qüvvələrinin nüfuzuna xələl gətirdi.

Davam edən dava... Bu dəfə 245-ci alayda

Stalinqrad döyüşü bitdikdən sonra həm hərbi hissələrin əsgər heyətinin çoxu həlak olduğu, itkin düşdüyü, yaralandığı üçün, həm də hərbi rəhbərliyin yeni hücum strategiyasına uyğun olaraq əksər ordular, diviziyalar, alaylar yenidən formalaşdırılırmış. Bu proses zamanı, yəni yenidən komplektləşmədə atam- Məmmədov Muxtar Gülməmməd oğlu 245-ci artilleriya alayının heyətində olub. Qələbəyədək bu alayın tərkibində vuruşub, bunu döyüş yoluna aid hərbi sənədlər, təltifləri, orden və medalların verilməsinə dair əmrlər daha aydın göstərir.

1943-cü il iyulun 5-də Krım bölgəsində 4-cü və 10-cu qvardiya atıcı briqadalarının bazası əsasında 108-ci atıcı diviziya yaradılıb. 245-ci qvardiya artilleriya alayı da bu diviziyaya daxil edilib. Diviziya bir neçə gün Krım bölgəsində müdafiə mövqeyi tutub.

Get-gedə Şimali Qafqaz uğrunda döyüş səngidiyi üçün savaşın ağırlığı yavaş-yavaş Ukrayna cəbhəsinə keçib. 245-ci alay da bu istiqamətdə Ukraynanın şərq bölgələrinə doğru irəliləyib. 56-cı ordunun Mavi xətti (Dnepr çayı nəzərdə tutulur) yarması əməliyyatına 3 gün qalmış - iyulun 19-na keçən gecə 108-ci diviziya əsas qruplaşmanın tərkibində iştirak etməklə bağlı hücum tapşırığı alıb. İyulun 22-də saat yarımlıq artilleriya hazırlığından sonra diviziyanın hissələri hücuma başlayıblar. Lakin hücum uğurlu olmayıb, mavi xətti yara bilməyiblər. Üçüncü gecə diviziyanın bütün alayları öz mövqelərini təslim edib geri çəkiliblər. Beləliklə, diviziya ilk uğursuzluğunu yaşayıb.

1943-cü ilin sentyabrın ilk günlərində diviziya bir aylıq fasilədən sonra dəmir yolu ilə Ukraynanın Rovenek rayonuna daşınıb. Sentyabrın 24-də son keçidini başa vurduqdan sonra bölmənin hissələri Moloçnaya çayı boyunca düşmənin yaratdığı müdafiə xəttinə yaxınlaşıb. Kiçik bir yüksəklikdən Voroşilovka, Pokaznoy, Novo-Muntal və nasistlərin müdafiə xəttinin keçdiyi təpələr aydın görünürmüş.

108 ГВАРДЕЙСКАЯ СТРЕЛКОВАЯ ДИВИЗИЯ

Армия

Просмотров: 2876

Сформирована на базе 4 и 10 гвардейских стрелковых бригад.

305, 308 и 311 гвардейский стрелковый полк,
245 гвардейский артиллерийский полк,
110 гвардейский отдельный истребительно-противотанковый дивизион,
104 гвардейская разведовательная рота,
115 гвардейский саперный батальон ,
167 гвардейский отдельный батальон связи (139 гвардейская отдельная рота связи),
600 (112) медико-санитарный батальон,
105 гвардейская отдельная рота химзащиты,
752 (109) автотранспортная рота,
675 (103) полевая хлебопекарня,
711 (106) дивизионный ветеринарный лазарет,
1595 (09276) полевая почтовая станция,
1263 полевая касса Госбанка.

Боевой период
6.7.43-5.12.43
1.2.44-9.5.45

108-я гвардейская стрелковая Николаевская Краснознаменная ордена Суворова дивизия (108-я гв. сд)

Вооружённые силы	ВС СССР
Вид вооружённых сил	пехота
Род войск (сил)	стрелковые войска
Почётные названия	Николаевская
Формирование	6.07.1943 года
Расформирование (преобразование)	в 1947 году в Одесском ВО

Награды

Преемственность

Предшественник	4-я гвардейская стрелковая бригада, 10-я гвардейская стрелковая бригада

Sentyabrın 26-da hücum başlayır və diviziya şiddətli döyüşlə müdafiəni poza bilir. Nəticədə, gün ərzində 600–800 metr irəliləməklə oktyabrın 26-da ağır döyüşlərin birində qəflətən əks tərəfin cəbhəsini yarıb, gözlənilmədən qarşı tərəfin mövqelərinə soxulmaqla diviziya digər birləşmələrlə birlikdə Moloçnayada düşmənin müdafiə xəttini keçə bilib. 3 noyabr 1943-cü ildə günortadan sonra diviziyanın əsas qüvvələri Dneprə çatıb.

Noyabrın 9-da hücum hazırlıqlarının qızğın vaxtında cəfəng hadisə baş verib. 44-cü ordunun komandanı general Xomenko, artilleriya komandanı general Bobkov və onları müşayiət edən bir neçə nəfər günün günorta çağı istiqaməti itirərək maşınla düşmənin mövqeyinə düşüblər. Əlbəyaxa döyüş zamanı generallar yanındakılarla birlikdə həyatla vidalaşmalı olublar... Bundan sonra diviziya bir müddət 28-ci ordunun tabeliyinə verilib.

3 həftəlik yenidən komplektləşmədən sonra diviziya bir daha cəbhə xəttinə yönəlir. 1944-cü ilin yanvarın sonlarında Malaya Lepetixa istiqamətində hücum əmri verilir və uğurlu əməliyyatdan sonra Nikopolsk meydanında diviziyanın bir alayı döyüşə-döyüşə Dneprin qərb sahilində kiçicik bir sahəyə adlamağa müvəffəq olur.



Lepetixa, Mikolaiv və Odessa bölgələri

Yalnız 1944-cü ilin fevralın ortalarında bu kiçicik meydan bir az böyüdülə bilir. Döyüşçülər əks tərəfin sərt müqavimətinə baxmayaraq gecə-gündüz demədən oyaq qalır, gah vurur, gah da vurulurlar. Amma gərginliyi azaltmaq, sayıqlığı itirmək əsla yolverilməzmiş.

Tezliklə 108-ci qvardiya diviziyasının da daxil olduğu 5-ci zərbə ordusu 3-cü Ukrayna Cəbhəsinə verilib. Yenidən gərgin döyüşlər başlayıb və nasistlər dözə bilməyib geri çəkilməyə məcbur olub, mühasirəyə düşməkdən qorxublar. Diviziyanın döyüşçüləri nə qədər çətinliklə qarşılaşsalar da, hamının əsas qayğısı irəliləmənin sürətini artırmaq imiş.

Martın 26-da diviziya düşmənin son müdafiə xəttinin keçdiyi Vodopoy deyilən yerə çatıb. Qısa bir artilleriya hücumundan sonra 108-ci diviziya digər birləşmələrlə birlikdə Nikolayevin (Mikolaiv) alınmasını reallaşdırıb. Uğurlu döyüş əməliyyatları zamanı göstərdiyi hünərə görə mükafatlandırılanlar arasında atam da olub. Qvardiya döyüşçüsü Muxtar Məmmədova Nikolayev şəhərinin alınmasına görə ölkə rəhbərliyi adından təşəkkür elan olunub.

Bundan sonra növbə Odessaya çatıb. Əlbəttə, öncə Nikolayev şəhərinin söykəndiyi bolsulu Yujnıy Buq (rusca-Южный Буг) çayını keçmək lazım idi. 1944-cü ilin martın 26-da ilk həmləni 8, 37, 57 və 46-ci qvardiya orduları etməliymiş. Xatırladım ki, atamın döyüşdüyü 108-ci atıcı diviziyanın 245-ci alayı bu vaxt məhz 46-cı ordunun tərkibində vuruşub. Yuxarıda qeyd etdiyim 4 ordu döyüşərək, özü də gecə vaxtı çayı keçmək üçün əməliyyata başlayıblar. Növbəti gün sovet qoşunları çayı keçib vilayət mərkəzinin qərbində əvvəllər rumın qoşunlarının işğalında olan ətraf şəhərləri tutub. Ardınca 10 minlərlə itki versələr də 1944-cü ilin aprelin 10-da Odessa almanların işğalından azad olunub.

Odessanın alınmasına görə atam yenə təltif olunub. Bu qısa müddət ərzində ikinci mükafatlandırma olub. Yenə ali baş komandanın şərəfləndirmə siyahısında Məmmədov Muxtar adı yer alıb.

Odessaya hücum əməliyyatının planı

Bundan sonrakı əməliyyatlarda atamın adı keçən konkret qəhrəmanlıq məqamları belə sıralanıb:

- *Cənubi Benderdə almanların müdafiə xəttinin yarılması*
- *Ukraynanın vilayət mərkəzlərindəki şəhərlərin alınması*
- *İzmail qalasının alınması*



За нашу Советскую Родину!

СЛАВА ГЕРОЮ
ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ
В О Й Н Ы.

Г Р А М О Т А.

Гвардии__ Младший сержант _ _ _ _ _
_ _Мамедов Мухтар Тальманович. _ _

Верховный Главнокомандующий Маршал Советского
Союза тов.Сталин Объявил Вам БЛАГОДАРНОСТЬ:

1.За освобождение города Николаев.
2.За освобождение города Одесса.
3.По прорыву обороны противника южнее Бендеры.
4.По овладению областным центром Украины городом и крепо
стью Измаил.

Təltifin bir hissəsi

Silsilə qələbələrdən ruhlanan sovet qoşunları Qərbə doğru - əvvəlki sərhədə tərəf irəliləməyə davam edib. Növbəti tapşırıq Dnestr çayını keçmək olub. Diviziya çayarası ərazilərdən birində dayanmalı olub. Çünki yaz vaxtı onsuzda bolsulu olan Dnestr həm də çox enli olduğundan qoşunlar müdafiə mövqeyi tutmağa məcbur olublar. Vuruşan tərəflərdən heç biri hücuma risk etməyib. Beləcə, 108-ci atıcı diviziya bu kiçik çay vadisində gələcək həmlələr üçün güc toplamaqla bərabər yaranmasının ildönümünü qeyd etməyi bacarıb.

Yassko-Kişinyov əməliyyatı ərəfəsində 108-ci diviziya cəbhənin sol cinahı boyunca vuruşaraq əvvəlcə Çobriçi kəndini tutub. Sonra isə Slobodzei istiqamətində hücumu davam etdirib yaxınlıqdakı Plaxteyevkanı da azad edib. 1944-cü il avqustun 20-də uğurlu Yassko-Kişinyov əməliyyatından sonra cənub istiqamətinə doğru üz tutub. Siret və Prut çaylarının arasına tərəf irəliləməklə çox da böyük olmayan Slobozio şəhərciyini ələ keçirib.

Avqustun 28-də atam bir qəhrəmanlıq nümunəsi də göstərib. Buna görə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin adından əmr verilib.



2 упр. ФРСНТ

СЕКРЕТНО.
экз. №.....

=П Р И К А З=

245 ГВАРДЕЙСКОМУ АРТИЛЛЕРИЙСКОМУ ПОЛКУ 108 ГВАРДЕЙСКОЙ СТРЕЛКОВОЙ НИКОЛАЕВСКОЙ КРАСНОЗНАМЕННОЙ ОРДЕНА СУВОРОВА Д И В И З И И 46 АРМИИ 3 УКРАИНСКОГО Ф Р О Н Т А.

"21" сентября 1944 г. № 014/Н Действующая Армия.

ОТ ИМЕНИ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СОЮЗА ССР Н А Г Р А Ж Д А Ю

Медалью "ЗА БОЕВЫЕ ЗАСЛУГИ"



- 8 -

5. Орудийного номера 2 батареи гвардии красноармейца
М А М Е Д О В А Мухтара Тюльмамедовича за то, что в бою с немецко-
фашистскими захватчиками проявил мужество и отвагу.
24.8.44 года тов.Мамедов заменил выбывшего из строя наводчика орудия, выкатил орудие на открытую ОП и прямой наводкой уничтожил 3 станковых и 2 ручных пулемета, орудие ПТО, миномет, подавил огонь 75 мм пушки, этим самым дал возможность стрелковой роте продвигаться вперед и занять село Гнидснталь.
25.8.44 года от арт.обстрела противником на ОП загорелись снаряды, невзирая на опасность тов.Мамедов первым бросился тушить их.

Рождения 1924 года, Азербайджанин, б/партийный. в РККА с 1942
Призван Таузским РВК. Домашний адрес:
Раненый и контужен не имеет.

Əmrdə belə yazılıb:

Məxfi

Nüsxə N....

Ə M R

III Ukrayna Cəbhəsi, 46-ci Ordunun 108-ci Qırmızı Bayraqlı Suvorov ordenli Qvardiya atıcı Nikolayev diviziyasının 245-ci Qırmızı Bayraqlı Qvardiya Artilleriya alayına

21 sentyabr 1944-cü il N -014/N Fəaliyyətdə olan ordu

SSRİ Ali Soveti Rəyasət Heyəti adından TƏLTİF edirəm

"***Döyüşlərdə fərqlənməyə görə***" medalı ilə

2 nömrəli artilleriya batareyasının qırmızı qvardiyaçısı ***Məmmədov Muxtar Gülməmməd oğlu*** *alman faşistləri ilə döyüşdə cəsurluq və igidlik göstərib.*

24.8.44-cü ildə yoldaş Məmmədov topun sıradan çıxmış nişançısını əvəz etdi, topu itələyib açıq atəş mövqeyinə gətirdi və birbaşa tuşlama ilə 3 ağır və 2 yüngül pulemyotu, tank əleyhinə topu, minamyotu məhv etdi, 75 mm-lik topu susdurdu, bununla atıcı rotaya irəli hərəkət etmək və ***Qnadental*** *kəndini tutmaq imkanı verdi.*

25.8.44-cü ildə düşmənin artilleriya atəşindən döyüş mövqeyindəki mərmilər alışdı, təhlükəyə baxmayaraq yoldaş Məmmədov birinci atıldı ki, alovu söndürsün.

Doğum ili 1924, Azərbaycanlı, partiyalılığı yoxdu. 1942-ci ildən Fəhlə-Kəndli Qırmızı Ordusunda; Tovuz rayon Hərbi Komissarlığı tərəfindən çağırılıb. Ev ünvanı:- - - - - -Yarası və zədəsi yoxdu.

Bu əmrə əsasən "Döyüşlərdə fərqlənməyə görə" medalı ilə təltif olunub[4].

Мамедов Мухтар Тюльмамедович

Наградной документ

Дата рождения: __.__.1924

Дата поступления на службу: __.__.1942

Место призыва: Таузский РВК, Азербайджанская ССР, Таузский р-н

Воинское звание: гв. красноармеец

Воинская часть: 245 гв. ап 108 гв. сд 46 А 3 УкрФ

Даты подвига: 24.08.1944, 25.08.1944

Приказ подразделения

№: 14/н **от:** 21.09.1944

Издан: 245 гв. ап 108 гв. КСД 46 А 3 Украинского фронта

Информация об архиве+

[4] https://pamyat-naroda.ru/heroes/?adv_search=y&last_name=%D0%9C%D0%B0%D0%BC%D0%B5%D0%B4%D0%BE%D0%B2%20&first_name=%D0%9C%D1%83%D1%85%D1%82%D0%B0%D1%80&middle_name=%D0%A2%D1%8E%D0%BB%D1%8C%D0%BC%D0%B0%D0%BC%D0%B5%D0%B4%D0%BE%D0%B2%D0%B8%D1%87&date_birth=1924&group=all&types=pamyat_commander:nagrady_nagrad_doc:nagrady_uchet_kartoteka:nagrady_ubilein_kartoteka:pamyat_voenkomat:potery_vpp:pamyat_zsp_parts:kld_polit:kld_upk:kld_vmf:potery_doneseniya_o_poteryah:potery_gospitali:potery_utochenie_poter:potery_spiski_zahoroneniy:potery_voennoplen:potery_iskluchenie_iz_spiskov&page=1

Qnadental kəndi Odessa vilayətinin qərb hissəsində Artsiz rayonunda, Rumıniya istiqamətində yerləşir. İlk məskunları alman kolonistləri olub. 1945-ci ildə Ukrayna hökumətinin qərarı ilə kəndin adı dəyişdirilib və **Dolinivka** adlandırılıb.



Dolinivka (keçmiş Qnadental kəndi, xəritədə işarələnmiş yer)

Noyabrın ilk günlərində Budapeşt istiqamətində hücum daha da genişləndirilib. Yolboyu iki gün ərzində diviziya **Nadkereş** və **Seqed** şəhərlərini ələ keçirib.

Atam bu bölgədə gedən döyüşlər zamanı da göstərdiyi mərdliyə görə fərqlənib. *Tissa çayının döyüşərək keçilməsi və Seqed şəhərinin alınmasına görə ali baş komandanın xüsusi təşəkkürünə layiq görülüb.*

Çox keçməmiş elə həmin günlərdəcə daha bir fəxri təltif alıb: *Macarıstanın iri dəmir yolu qovşağının –Solnokun və bir sıra şəhərlərin alınmasında mərdliklə döyüşdüyünə görə.*

Artıq noyabrın 26-da yeni tapşırıq alınıb: Budapeştin cənub cinahı tərəfdən Dunaya həmlə etmək. Dekabrın 4-də gecəikən Dunayı keçə biliblər. Moloçnaya, Dnepr, Buq, Dnestr kimi iri

çayların-mavi müdafiə xətlərinin keçilməsi əməliyyatlarına baxanda Dunayı daha az itki ilə keçmək mümkün olub. Amma sən demə bu nisbətən asan keçidin bir çətin dönəmi də olacaqmış…

1944-cü il dekabrın 26-da 46-cı ordunun qoşunları Macarıstan paytaxtının qərb cinahına keçməklə Budapeştdəki alman qüvvələrinin ətrafında dövrə qapanıb. Bu zaman 37-ci korpusun tərkibində vuruşan 108-ci diviziya alatorandan hərəkətə başlayaraq özünü Buda şəhərinin qərb kvartalına yetirib. Tezliklə qızğın küçə döyüşləri başlayıb. Alman komandanlığı mühasirəyə düşən qoşunlarına kömək etmək üçün 1945-ci yanvarın 18-də 550-dən çox tank və güclü hücum silahları ilə qəfil hücuma keçib. İki gün sonra düşmən tankları Dunay xəttinə çıxaraq Budaya tərəf tuşlanıblar.


11.01.43

245-ci alayın döyüş əməliyyatları jurnalının səhifəsi[5]

Bir müddət atışma kəsilib. Lakin tezliklə silahlar yenidən şaqqıldayıb. Hücum qrupları israrla irəliləyərək mühasirə həlqəsini get-gedə daraldıblar. Yanvarın 30-u isə səhər almanların qəfil

[5] https://pamyat-naroda.ru/documents/view/?id=451009273

zərbəsi ilə açılıb. Ancaq nasistlər müdafiə xəttini yara bilməyib geri durmaq məcburiyyətində qalıб.



108-ci diviziyanın və 245-ci alayın döyüş yolu[6]

Fevralın 11-də 108-ci diviziyanın digər hissələrinin Dunaya yaxınlaşaraq çay boyunca hücuma keçmələri situasiyanı qəlizləşdirib. Fevralın 12-nə keçən gecə çarəsiz qalan almanlar yenidən mühasirədən çıxmağa cəhd ediblər. Bu dəfə xeyli qüvvə şəhərdən çıxmağı bacarıb, qalanların isə taqəti qalmayıb. Nəhayət, 1945-ci il fevralın 13-də Macarıstanın paytaxtı tamamilə sovetlərin əlinə keçib. 48 gün davam edən ağır savaş- Budapeşt əməliyyatı da beləcə başa çatıb.

Budapeşt uğrunda gedən döyüşlərdə göstərdikləri cəsarət və şücaətə görə əsgər və zabitlər orden və hərbi medallarla təltif edilib. Bu sırada atamın adı düz 3 dəfə ali rəhbərlik tərəfindən xüsusi qeyd edilib və hər birinə görə ayrıca təltif olunub, müxtəlif vaxtlarda medal verilib.

[6] https://pamyat-naroda.ru/warunit/108%20%D0%B3%D0%B2%20%D1%81%D0%B4/


7. По форсированию реки Дунай южнее Будапешта и прорыву обороны противника на западном берегу реки.
8. По разгрому окруженной группировки противника и овладению столицей Венгрии городом Будапешт.
9. По разгрому танковой группы немцев юго-западнее города Будапешт.

Təltif barədə sənədin yuxarıda verilən hissəsində belə yazılıb:

7. Budapeştin cənubundan Dunay çayının döyüşərək keçilməsi və çayın qərb sahilində düşmənin müdafiəsinin yarılmasına görə.

8. Mühasirəyə alınmış düşmən qruplaşmasının darmadağın edilməsi və Macarıstanın paytaxtı Budapeştin alınmasına görə.

9. Budapeştin cənub-qərbində almanların tank qrupunun darmadağın edilməsinə görə.

Budapeştin alınmasından sonra 245-ci alay Macarıstanın cənub–qərb bölgəsində, Balaton gölü ətrafında vuruşub. Burada da almanları bir çox yaşayış yerlərindən kənarlaşdıra və Avstriya sərhədlərinə doğru sıxışdıra biliblər. Şiddətli döyüşlər əsasən iki şəhər uğurunda gedib: Zalaeqerseq və Kestel. 1945-ci il martın 30-da komandanlıq tərəfindən verilən bir əmrdə[7] Kestel şəhəri uğurunda atamın necə cəldliklə savaşdığı adamı heyrətə gətirir.

[7] https://pamyat-naroda.ru/heroes/?adv_search=y&last_name=%D0%9C%D0%B0%D0%BC%D0%B5%D0%B4%D0%BE%D0%B2%20&first_name=%D0%9C%D1%83%D1%85%D1%82%D0%B0%D1%80&middle_name=%D0%A2%D1%8E%D0%BB%D1%8C%D0%BC%D0%B0%D0%BC%D0%B5%D0%B4%D0%BE%D0%B2%D0%B8%D1%87&date_birth=1924&group=all&types=pamyat_commander:nagrady_nagrad_doc:nagrady_uchet_kartoteka:nagrady_ubilein_kartoteka:pamyat_voenkomat:potery_vpp:pamyat_zsp_parts:kld_polit:kld_upk:kld_vmf:potery_doneseniya_o_poteryah:potery_gospitali:potery_utochenie_poter:potery_spiski_zahoroneniy:potery_voennoplen:potery_iskluchenie_iz_spiskov&page=1



СЕКРЕТНО
Экз.№....

=П Р И К А З=

2 4 5 ГВАРДЕЙСКОМУ АРТИЛЛЕРИЙСКОМУ КРАСНОЗНАМЕННОМУ П О Л К У
I ОВ ГВАРДЕЙСКОЙ СТРЕЛКОВОЙ НИКОПАЕВСКОЙ КРАСНОЗНАМЕННОЙ ОРДЕНА
СУВОРОВА ДИВИЗИИ, 2 7 А Р М И И, Ю Ж Н О Й ГРУППЫ В О Й С К

"27" июля 1945 года № 020/Н Действующая Армия.

От имени Президиума Верховного Совета Союза ССР Н А Г Р А Ж Д А Ю:

Медалью " З А О Т В А Г У "



- 3 -

7. Наводчика орудия 2 батареи гвардии младшего сержанта М А-
М Е Д О В А Мухтара Тюльмамедовича за то, при ведении уличных боев
в городе КЕЛЕЛЬ выкатил свое орудие в боевые порядки пехоты и пря-
мой наводкой стал расстреливать пулеметные точки, укрепленные в до-
мах и на чердаках. Только 30 марта 1945 года огнем своего орудия по-
давил огонь 4 пулеметов и уничтожил 2 пулемета с его прислугой,
обеспечил стрелковым подразделениям захват четырех кварталов города
15 апреля 1945 года, двигаясь в боевых порядках пехоты, пря-
мой наводкой расстрелял I бронетранспортер и орудие.

Рождения 1924 года, Азербайджан, член ВЛКСМ в РККА с 1941 г.
Призван Тавузским РВК. Домашний адрес: [redacted]
Ранений не имеет. Награжден медалью "ЗА БО-
ЕВЫЕ ЗАСЛУГИ" приказ 245 ГВАП № 014/Н от 21.9.44 года.

Bu əmrə əsasən “İgidliyə görə” medalı ilə təltif olunub.

Мамедов Мухтар Гюльмамедович

Наградной документ
Дата рождения: __.__.1924
Дата поступления на службу: __.__.1941
Место призыва: Таузский РВК, Азербайджанская ССР, Таузский р-н
Воинское звание: гв. мл. сержант
Воинская часть: 245 гв. ап 108 гв. сд 27 А ЮГВ
Даты подвига: 30.03.1945, 15.04.1945

Приказ подразделения
№: 20/н **от:** 27.07.1945
Издан: 245 гв. ап 108 гв. сд 27 А ЮГВ
Информация об архиве+

Əmrin tərcüməsi belədi:

Məxfi

Nüsxə N....

Ə M R

Cənub Qrupu Qoşunları, 27-ci Ordunun 108-ci Qırmızı Bayraqlı Suvorov ordenli Qvardiya atıcı Nikolayev diviziyasının 245-ci Qırmızı Bayraqlı Qvardiya Artilleriya alayına

27 iyul 1945-ci il N -020/N Fəaliyyətdə olan ordu

SSRİ Ali Soveti Rəyasət Heyəti adından TƏLTİF edirəm

“ *İgidliyə görə*” medalı ilə

*2 nömrəli artilleriya batareyasının qvardiya **kiçik çavuşu Məmmədov Muxtar Gülməmməd** oğlu **Kestel** şəhərində küçə döyüşləri aparılarkən öz topunu itələyib piyadaların döyüş hissəsinə çıxardı və birbaşa tuşlama ilə evlərdə və çardaxlarda yerləşən pulemyot nöqtələrinə atəş açdı. Təkcə 30 mart 1945-ci ildə öz top silahı ilə 4 pulemyotu susdurdu, 2 pulemyotu xidmət edənlərlə birlikdə məhv etdi, atıcı bölüyün şəhərin 4 kvartalını tutmasını təmin etdi.*

15 aprel 1945-ci ildə piyadaların döyüş hissələri ilə hərəkət edərək birbaşa atəşlə 1 zirehli maşını və topu məhv etdi.

Doğum ili 1924, Azərbaycan, ÜİLKGİ-nin üzvü, 1941-ci ildən Fəhlə-Kəndli Qırmızı Ordusunda; Tovuz rayon Hərbi Komissarlığı tərəfindən çağırılıb. Ev ünvanı:------Yaralanmayıb. "Döyüşlərdə fərqlənməyə görə"medalı ilə təltif olunub, 245-ci qv. art. alayı, əmr N 014/N, 21.9.1944-cü il.



Seged, Solnok, Budapeşt,Kestel və Zalaegerseg şəhərləri



Cib dəftərçəsinin ilk səhifəsi

Bu, atamın müharibəyə aid sənədlərinin içindən ötürdüyümüz maraqlı bir cib dəftərçəsi-bloknotudu. Vərəqlədikcə məlum olur ki, bir vaxt macar dilini öyrənirmiş. Qeydlərdən belə anlaşılır ki, Macarıstan ərazisində çox qalıblar, buna görə macar dilinə maraq göstərib.



Nəhayət, aprelin ilk günləri. Macarıstan geridə qalır, qarşıda Avstriya sərhəddidi.

Aprelin 9-da 108-ci diviziyanın qərargahı bütün günü qarşı tərəfin müdafiə xəttindəki atəş sistemlərini, mühəndis qurğularını araşdırır. Arada təlim keçir, heç yana tələsmirmiş kimi müvəqqəti müdafiə mövqeyində durur və əlbəttə, qələbənin çox uzaqda olmadığını anlayırmış.

Mayın 6-da yenidən irəliləmək üçün əmr verilir. Mayın 8-də səhər saatlarında ərazi qatı dumana bürünübmüş. Qısa hücum atəşindən sonra ön dəstə irəli həmlə edib. Almanlar zərbəyə dözə bilməyib geri çəkilməyə başlayıb. Öndə gedən dəstələrin ardınca

əsas qüvvələr də sıra ilə hücuma keçiblər. Yollar almanların atıb qaçdığı avtomobillər, silahlar və pulemyotlarla doluymuş…

Mayın 9-na keçən gecə diviziyaya xüsusi xəbər verilir...Almaniya təslim oldu.

Beləliklə, 5 illik qanlı, üzücü, az qala hər saniyə şirin canlar alan, adı dünya boyda böyük olan müharibə bitib. Amma aldığı milyonlarla cavan canların acısı günümüzədək davam edib, edir...

Atamdan əvvəl böyük qardaşları Ədil əmimlə Qədir əmim, eyni zamanda babam Murad Ələkbər oğlu və qardaşı Əli Ələkbər oğlu və digər qohumlar da müharibəyə gedib, acı talelər yaşayıblar. Qədir əmim müharibənin ilk aylarında döyüş zamanı mühasirəyə düşsə də sonra azad olub vətənə qayıdıb. Digər qohum- əqrəbanın hamısı itkin düşüb.

Sonuncu məktublar...

Məmmədov Ədil Gülməmməd oğlu Gürcüstanın Kutaisi bölgəsində, 38-ci ehtiyat atıcı briqadanın tərkibində döyüşüb, itkin düşüb. Rusiya Müdafiə Nazirliyinin Mərkəzi Arxivindəki sənədlərdə qeyd olunur ki, axırıncı məktubu 1942-ci ilin fevralın 18-də Kutaisidəki poçtdan göndərilib[8].

Мамедов Адиль Гюльмамед

Дата рождения: __.__.1909
Дата и место призыва: __.__.1942 Таузский РВК,
Азербайджанская ССР, Таузский р-н
Воинское звание: красноармеец
Последнее место службы: 38 зсб
Дата выбытия: __.04.1942

Причина выбытия: пропал без вести



[8] https://obd-memorial.ru/html/info.htm?id=61776185



Ədil Gülməmməd oğlu və Murad Ələkbər oğlu haqda məlumat

Aşağıdakı məlumat **Gülməmmədov Murad Ələkbər**[9] oğluna aiddir. Göründüyü kimi, atasının adını səhv yazıblar, Ələkbər əvəzinə Əkbər yazılıb. Ədil əmimlə Murad babamın adı itkin düşənlər siyahısında ardıcıldı- 758 və 759. Murad babam 28-ci ehtiyat atıcı briqadada döyüşürmüş. Axırıncı məktubunu 1942-ci il aprelin 5-də Gürcüstanın Avçalı stansiyasından anası Gülməmmədova Ballı Sadıx qızına göndərib.

Гюльмамедов Мурад Акпер

Дата рождения: __.__.1911

Дата и место призыва: __.__.1942 Таузский РВК, Азербайджанская ССР, Таузский р-н

Воинское звание: красноармеец

Последнее место службы: 28 зсб

Дата выбытия: __.06.1942

Причина выбытия: пропал без вести

Növbəti məlumat babamın qardaşı **Gülməmmədov Əli Ələkbər**[10] oğluna aiddir. Onun ata adını düz yazıblar, qardaşı ilə eyni briqadanın (28-ci ehtiyat atıcı) tərkibində imiş. Axırıncı məktubu 1942-ci il sentyabrın 30-da Avçalı stansiyasından göndərilib. İtkin düşüb.

[9] https://obd-memorial.ru/html/info.htm?id=61776186
[10] https://obd-memorial.ru/html/info.htm?id=60730068

Гюльмамедов Али Алекпер

Дата рождения: __.__.1898

Дата и место призыва: __.__.1942 Таузский РВК, Азербайджанская ССР, Таузский р-н

Воинское звание: красноармеец

Последнее место службы: 28 зсб

Дата выбытия: __.11.1942

Причина выбытия: пропал без вести



Əli Ələkbər oğlu haqda məlumat

Yaşlı nəslin nümayəndələri deyir ki, Ədil əmimlə eyni gündə kəndimizin digər oğlanları, həm də yaxın qohumlarımız olan **Şəmil Əsgər oğlu, Ələsgər Məşədi Söyün oğlu, Müseyib Məşədi Söyün oğlu, Rəsul İsa oğlunu** da davaya aparıblar. Bu adamların heç biri qayıtmayıb. Hər biri uzağı 1-2 il fərqlə həmyaşıd olublar. Danışırlar ki, Ədil əmim çox qoçaq adam olub. Alapaça atına minərkən elədiyi hərəkətlərə dair söhbətlərə qulaq asanda deyirsən elə Giziroğlu Mustafa bəy imiş. Özü də müharibəyə qədər kolxozun camış fermasının müdiri olub deyirlər. O biri tay-tuşları–qohumlar Şəmil, Rəsul, Ələsgər və Müseyib (sonuncu iki nəfər qardaş olub) kənddə ad çıxarmış dəliqanlılar imiş. Şəmilin atası Əsgər kişini ötkəm və sözünü deyən adam olduğu üçün şərləyiblər, nəticədə ruslar 1937–ci il Keşkənddə nümayişkaranə şəkildə güllələyiblər. Atası güllələnən zaman Şəmil böyük oğlan imiş, azı 25 yaşı olub. 3-4 il sonra müharibə başlayanda bu gözü yaşlı, sinəsinə dağ çəkilmiş

cavan oğlan 30 yaşın civarındaymış... Sonuncu məktubu Gürcüstanın Maxaradze rayonundan (indiki Ozurgeti rayonu, Batuma gedən yolun kənarında yerləşir) 1941-ci ilin sentyabrın 20-də yazıb. Sonra itkin düşdüyü barədə xəbər yayılıb. Anası Gilə bibim (mamamın bibisiydi, biz də bibi demişik həmişə) soraqlayıb öyrənir ki, bizim qonşu Kirən kəndindən olan bir nəfər gəlib, vaxtilə Şəmillə bir yerdəylərmiş. Atı minib, xeyli uzaq da olsa, gedib oğlunun müharibə yoldaşını danışdırıb. O adam Gilə bibimə deyibmiş ki, "nəinki Şəmil, heç Ədil də itkin düşməyib, onlar başqa ölkəyə keçdilər"...

Ədil əmimin taleyi hələ gənc ikən məni çox düşündürüb. Ağlım kəsəndən onun şəklini evimizdə divardan asılı görmüşəm. Çox adamdan çox şey soruşmadan, elə şəkilə münasibətdəncə duymaq olurdu ki, bu adam kimdisə ailəmiz üçün, ələlxüsus da atam üçün çox əziz adamdı. Haqqında danışılanları eşitdikcə həmişə fikirləşmişəm ki, kaş o yaşayaydı, elə bir adamı biz də görəydik. Son dövrlər isə onun harada itkin düşməsi, nə vaxt müharibəyə aparılması, hansı bölgədə vuruşması barədə bilgi əldə etməyin mümkünlüyünü və vacibliyini düşünürdüm. Bu istiqamətdə müxtəlif vaxtlarda müəyyən axtarışlar etmişəm. Bəzən elə olub ki, gecənin yarısında hasil etdiyim nəticəni səhərə yaxın təkzib etməli olmuşam. Soyadını adını, ata adını səhv yaza bilərlər deyib hərdən hansısa qəbiristanlıqda dəfn olunmuş adama dair çoxlu oxşar variantları da toplamışam ki, bəlkə təsəlliverici nəsə olar. Təkcə ata adını Gülməmməd və Məmməd kimi, oğlu sözünü isə gah rusların stilində bitişik (rusca-ович), gah da ayrıca (rusca-оглы), yaxud sadəcə adın özünü yazası olsaq və buraya soyadın və adın təhrif olunmuş versiyalarını da əlavə edib axtarışa başlasaq, matematik permutasyon həll edirikmiş kimi olurdu. Lakin iki ay öncə, nəhayət, itkin düşməsi barədə sovet arxivinin yuxarıda təqdim etdiyim məlumatını tapdım. Əlbəttə, bunu yüzdə-yüz səhih informasiya kimi qəbul edəmmərik, heç buna o məlumatı yayan qurumlar özləri də tam əmin olmazlar. Tərkibində olduğu 38-ci ehtiyat atıcı briqadanın döyüş yolu barədə maraqlananda isə şübhələrim birə-beş artdı: Ədil kimi adam bu başıpozuq briqadada özünü güdaza verməzdi. Bu günlərdə Şəmillə Ədilin itkin düşmədiyi barədə hələ

75 il bundan qabaq deyilən sözləri eşidəndə isə net Əsgərin görmədiyim, lakin xəyalımda qurduğum günahsız güllələnmə səhnəsinin təsirsiz ötüşmədiyini fikirləşdim...

Aşağıdakı məlumatda **Məmmədov Şəmil Əsgər** oğlunun 1911-ci ildə anadan olduğu, 1941-ci ildə Tovuz rayonundan müharibəyə aparıldığı, sonuncu xidmət yeri 370-ci atıcı diviziya olduğu və 1941-ci ilin dekabr ayından itkin sayıldığı yazılıb.

Мамедов Шамиль Аскер
Дата рождения: __.__.1911
Дата и место призыва: __.__.1941 Таузский РВК, Азербайджанская ССР, Таузский р-н
Воинское звание: красноармеец
Последнее место службы: 370 сд
Дата выбытия: __.12.1941
Причина выбытия: пропал без вести

Bu siyahıda 236-cı olan Şəmilin[11], o cümlədən 237-ci olan öncə qeyd etdiyim 5 nəfərdən biri-Məmmədov Rəsul İsa oğlunun da haqqında eyni məlumatlar yazılıb: 1910-cu ildə doğulub, 1941-ci ildə müharibəyə aparılıb, sonuncu xidmət yeri 370-ci atıcı diviziya və 1941-ci ilin dekabr ayından itkin sayılıb.



Şəmil Əsgər oğlu və Rəsul İsa oğlu haqda məlumat

[11] https://obd-memorial.ru/html/info.htm?id=60730111

Yuxarıda itkin düşmüş sayılan doğmalarımızın yer aldığı siyahının bir hissəsi təqdim olunub. Həmin siyahılardakı şəxslərin əksəriyyəti həmkəndlilərdir. Bunu nəzərə alaraq həmin siyahılar tam şəkildə mətnin sonunda yerləşdirilib.

Atamın döyüş yolunun qısaca xronolojisi:

Məmmədov Muxtar Gülməmməd oğlu

Avqust 1942-ci il- II dünya müharibəsinə çağırılıb

Dekabr 1942-ci il- 112-ci artilleriya alayında hərbi andı qəbul edib

Avqust 1942-ci il-fevral 1943-ci il- 112-ci artilleriya alayı, top komandiri

Mart 1943-ci il-sentyabr 1945-ci il- 245-ci artilleriya alayı, topçu

1944-ci ildə bu alayın 2-ci batareyasında döyüşüb

245-ci artilleriya alayı1943-cü ildə III Ukrayna cəbhəsində, 1944-cü ildən 1945-ci ilin iyun ayına qədər isə II Ukrayna cəbhəsində vuruşub.

Sentyabr 1945-ci il-iyul 1946-cı il, II təlim tank alayı, dərzi

4.02.1947-ci il, ordudan buraxılıb.

Atam müharibədən sağ-salamat qurtara bilsə də, sovet hökuməti yaxasını buraxmayıb. Təzədən Sverdlovsk bölgəsində 1947-ci ilədək II təlim tank alayında əsgərlik çəkməli olub. Həmin vaxt partiyaya da keçiriblər. Bu zaman yaxşı bir fikir eliyib. Sovetin tankından, topundansa imkan və vaxt varkən sənət öyrənməyə qərar verib-dərzilik sənətinə yiyələnib. Bu da almanların təzadlı taleləridi. Onlara qarşı vuruşub, ancaq könlünü, işini-gücünü alman tikiş maşınına kökləyib. Müharibədən və sevimli sənətindən danışanda özünəməxsus yumorla deyirdi: *"Almanlarla vuruşdum, amma ixtiralarına vuruldum"*.

Məhşur Zinger markalı tikiş maşınını deyirdi. Hansı ki, 1947–ci ildə ordudan buraxılıb Vətənə dönəndə özü ilə gətirib. İndiyədək yadigarı kimi qalır, saxlayırıq. Başqa necə ola bilər, illər boyu bizə çörək, əyin-baş, dolanışıq verib.

Onun həyatda əsasən iki sevimlisi olub. Birini, öncə bildirdiyim kimi, əsgərlikdə sevib-seçib, gələndə vəfasızlıq edib orada qoymayıb, özü ilə gətirib, sonralar da həmişə diqqətlə yanaşıb. Niyə də olmasın, onun vasitəsilə yaxşı ad-san qazanıb, ev-eşik qurub, ailə-uşaq sahibi olub, şükür bərəkətinə. Digər sevimlisini isə uzaq diyardan gətirməyə ehtiyac yoxuymuş...

Kəndə könül vermiş, bu yandan da Böyük Savaşdan üzüağ çıxmış Qəhrəmanın tələsməyi doğru olmazmış, əzəl sənət sahibi olmaq lazımmış.

Dərzi Muxtar

Danışırdı ki, Vətənə dönəndən sonra kənddə dərzilik eləməyə şərait yox idi. Bir müddət kənddə qalıb, müharibədən sonra ailədə çətin vəziyyətə-reallığa baxıb və kolxozda anbardar işləyib. Sovet idarəçiliyinin iyrəncliyi bu balaca dağ kəndində də bütün əlamətləri ilə özünü göstərirmiş. Yalançı hesabat yığıncağının birində etiraz edir və 1948-ci ilin payızında bu işdən ayrılıb sənətdən yaxşısı yoxdu deyə düşünür. Kənddə isə dərzilik eləmək, normal usta kimi işləmək üçün çeşidli parçalar, müxtəlif ölçülü saplar, ortabab bir otaq və sair mal-material yox.

Heç ağlıma gəlmədi soruşam, həmin vaxt kənddə ütü işlətmək üçün elektrik varıydımı, kəndə işıq çəkilmişdimi. Məncə yoxuymuş. Amma şəraitsizliyin əsas səbəbi bu ola bilməzmiş, çünki kömür ütüsü varmış. Çox yerdə fərqli kömür ütüləri görmüşəm, amma atamdakı kömür ütüsünün maraqlı iş prinsipi və quruluşu var idi. Ütü həqiqətən sənət əsəri, antikvardı. Bəzən işıq olmayanda kömür ütüsündən istifadə elədiyinin dəfələrlə şahidi olmuşam. Sobadan qıpqırmızı odları bir-bir seçib maşayla ütünün odaxanasına qoymaq özü bir pərgərlik tələb edir. Elə od parçaları seçməlisən ki, ütü normal qızsın və lazım olan müddət ərzində qızğın qalsın. Ütünün

hazırlanması zamanı hansı tip parçanı ütülüyəcəyini də nəzərə almalısan. Bilməlisən ki, ütüləmək istədiyin paltar hansı parçadandı, bostondu, trikodu, məxmərdi, qabardindi, ya nədi.

Əlbəttə, bir yaxşı kömür ütüsü hər şey demək deyil ha. Lap zinger maşın da var. Amma bu da gərəkənlərin tamına çatmır. Hələlik kənddə dərzilik üçün minimal şərait olmadığından ən yaxşı çıxış yolu rayona getmək olub. Odur ki, hər iki sevimlisini– müharibədən qayıdanda gətirdiyi zinger maşını və mamamı qoltuğuna vurub rayon mərkəzinə gəlib. Təbii ki, Tovuzun mərkəzi daha təminatlı, mal-material cəhətdən boldu. Burda daha mükəmməl öyrənməyə, məsləhətləşməyə, bəzən köməyindən yararlanmağa ehtiyac olan xeyli püxtələşmiş, köhnə kişilər var, bunun özü böyük şərtdi. Sonralar mən özüm də gördüm, Tovuzun özündə mərkəzə yaxın küçənin birində yan-yana az qala on-on beş dərzi budkası vardı. Atamın adlarını çəkdiyi ustalar, onların yanına gələn müştərilər və digər məlumatlardan belə anlaşılır ki, elə o vaxt da burada az iş yeri olmayıb, paltar tikən, sifariş verən xeyli adam varmış. Müştəri cəhətdən isə bura, əlbəttə, kəndlə müqayisə olunmaz. O vaxt kənddə nə qədər adam paltar tikdirmək istəyirmiş ki. Beş-on nəfər qulluqda olan, on-on beş də varı-halı olan, lap 3-4 nəfər də müəllim. Bununla ayda nə qədər qazanc eləmək olar, cüzi. Gördüyün işin bir xeylisi nisyə olsa, hansı ki, mütləq olur da, onda vəziyyət lap qəlizləşir. Odur ki, rayon mərkəzi işləmək üçün hər cəhətdən əlverişli olub.

O vaxtlar, yəqin ki, Bakı uzaq olduğundan, Tiflisə getmək, oradan çoxlu yaxşı parça gətirmək ustaların-mötəbər dərzilərin üstünlüyü olub. Rusca, ələlxüsus da gürcücə bildiyi üçün atam bu məqamdan xeyli yararlanıb. Yadımdadı ki, 70-80-ci illərdə belə atam Tiflisə gedir, özünə lazım olan çoxlu mal-material alıb gətirirdi. Çox vaxt səhər o başdan evdən çıxır, Tiflisə dəyib axşamüstünədək rahat qayıdırdı.

Tovuzda işləyərkən atamgil rayonun Abulbəyli deyilən hissəsində yaşayıblar. 1948-ci ildən 1955-ci ilədək burada olublar. Bacım Kifayət və qardaşım Xaliq burada anadan olublar. Sabir adlı bir uşaqları da olub. Danışırdılar ki, günün birində mamam uşağı

çimizdirib çarpayısında yatızdırıb, bir azdan görüb ki, uşaq ağzıüstə çevrilib və boğulub ölüb. Bu faciə atamgilə çox pis təsir edib. Qonşularla nə qədər əziz olsalar da qohum-əqrəbanın olmaması dar macalda gənc ailəni bərk darıxdırıb, qəribsədib. Bu hadisədən sonra kəndə köçüblər. Kənddəkilər də bu neçə ildə onları dəng ediblərmiş. Tez-tez deyirlərmiş, nə var orda, gəlin məhlə tutun, ev tikin, əkin, becərin, inəyiniz, lap 5-6 qoyun-quzunuz da olar, həm də gözümüzün qabağında olarsız, dərdinizi-sərinizi bilərik. Elə o vaxtdan əziz Kəhriz küçəsindəki evdən ayrılmalı olublar. Amma oradakı qonşulardan ayrıla bilməyiblər. Həmişə Xıdır kişigil bizim üçün uzaq olmasına baxmayaraq əziz və əvəz olunmaz qonşu olublar.

Atam kəndə köçəndə inzibati mərkəz olan Keşkənddə məskunlaşıb və elə burada da işləyib. Sonra Keşkənddə Cavad kişinin dükanının yanında ayrıca yer veriblər. 1964-cü ilin yayında isə Keşkənd və ətrafdakı Qoşabulaq, Totuqlu, Pərizamanlı, Samanlıq, Moruxlu kəndləri Gədəbəy rayonunun tərkibinə verildiyi üçün öz kəndimiz inzibati mərkəz olub və atam da Tovuz rayon Əhaliyə Məişət Xidməti Kombinatının qərarı ilə iş yerini bura köçürüb. Əmək fəaliyyətinin sonuna qədər burada-Çobansığnaq kəndində işlədi. Məlumat üçün deyim ki, burada müxtəlif xidmət sahələrini əhatə edən, lakin eyni təşkilata bağlı olan bir neçə insan çalışırdı. Hərəsinin də ayrıca öz budkası vardı. Atamdan başqa Qəşəm Səməd dərzi (atamın şəyirdi olmuşdu), İdris Tağı ayaqqabı ustası, Xəlil Cavad isə bərbər kimi çalışırdılar. Bir ara atam bütün bu xidmətlərin briqadiri oldu.

Yazının lap əvvəlində qeyd etmişdim ki, atamı el-obada əksəriyyət tanıyırdı. İlk baxışda burada qeyri-adi nə var ki, deyə bilərik. Düzdü, kənd yeridi, özü də dağ kəndi, aran kəndləri kimi deyil ha sıxlıq olsun, burda hamı bir-birini onsuz da tanıyır. Bəli belədi, həm də belə deyil. Bir inzibati ərazi dairəsində yaşamağımıza baxmayaraq qonşu para kənddə, lap öz kəndimizdə hamı bir-birinin qapısını tanımır, səmtini düz-əməlli bilmir. Konkret bir işimiz düşməyibsə, kəndin bir az daldeyində məskunlaşıbsa, hardan tanıyasıyıq. Günü bu gün elə ev, elə adam

var biz hələ onun həndəvərindən keçməmişik. Qonşu kəndləri demirəm, lap öz doğma kəndimizdə elə ev var ki günün günorta çağı mən onun doqqazını tapmaq istəsəm, döyüküb qalaram. Amma yekəxanalıq kimi çıxmasın, bizim qapını hər kəs tanıyırdı, köhnə kişilər də, cavan nəslin yetirmələri də. Səbəb buydu ki, o dövrdə, xüsusilə müharibədən sonrakı illərdə fabrik malı tapıb almaq və geyinmək müşkül məsələ imiş. O üzdən əksəriyyət, o cümlədən özünü, sözünü bilən qulluq adamları, müəllimlər və ərdəmli kişilər qışda qabardin, yayda lavsan parçalardan şax kostyum tikdirməyi sifariş verərlərmiş.

Bəzən fabrik malı gərəkən ölçüdə olmurdu, kənddə və rayon yerində normal kostyum tapmaq da çətin olurdu. Bir tərəfdən də qiymət adamları qane etmirdi. Bütün bu səbəblər yaxşı ustanın müştərilərinin artmasına və məhşurlaşmasına şərait yaradırdı. Ancaq atamın hər eldə-obada tanınmasının əsas səbəbi bunlar deyildi. Əsas olan, ona daha çox hörmət gətirən işinə ciddi yanaşmağı, hər bir müştərinin ölçüsünə-biçisinə diqqət etməyi, ən önəmlisi isə səxavətli olmağı idi. Hamı bilirdi ki, Dərzi Muxtar haqq-hesab məsələsində aldatmaz. Parça seçiminin yaşa və başa uyğun, həm də keyfiyyətli olması ilə bərabər sifarişin vaxtında yerinə yetiriləcəyi müştərilər üçün etibar yaradırdı.

Məxsusi dəftəri varıydı. Hər kəsin yanındaca ona ayrılan parçanın növünü, tikiləcək paltarın ölçülərini, işin maliyyətini, geyinib baxma (primerka) vaxtını və sifarişin hazır olacağı tarixi dəqiq qeyd edirdi. Müştəri ilə bütün münasibətləri şəffaf qururdu. Parça biçinindən kiçicik bir hissə qalacaqdısa, müştəriyə bunu əvvəlcədən anons edirdi. Adətən müştərilər bu məqamı bilmirlər. Amma atam bunu mütləq deyir, dalınca da qalıq parçadan nə çıxa biləcəyini, məsələn, əlavə olaraq haqq ödənmədən pencəyin altından yaraşıqlı bir jilet tikilməsini təklif edirdi. Bax, bu özəlliklərinə görə bizim, hətta bu gündə yalnız adını eşitdiyimiz bir çox ətraf kəndlərin sakinləri atlı, ya piyada məktəbin yanındakı budkasına, orda olmasa evə gəlib, qapımızı tanıyıblar, Dərzi Muxtarı soruşublar: "*Dərzi öydədimi, a bala*".

Çox vaxt o anadək görmədiyimiz, tanımadığımız kişilərin ötkəm səsindəki hörməti-izzəti biz uşaqlar da rahatca duyurduq. Hər gələn qonağa münasibətdə qaydası beləydi: Kimliyindən asılı olmayaraq, hörmətlə qarşılayır, çay–çörək verir, sifarişini qeyd edir və ədəb-ərkanla yola salırdı. Yəni, gələn adama mütləq qayğı göstərir, qonaqpərvərliyindən qalmırdı. Bu cür davranış bizim də beynimizə həkk olunmuşdu. Özü evdə olmayanda, yad adam gələndə çaşıb qalmırdıq. Eynən onun elədiyi kimi, biz də tanıdıq-tanımadıq gələn adamı hörmətlə qarşılayar, evə dəvət edərdik. Bilirdik ki, o adamlar bizim üçün yad deyillər, yaxın qohum-əqrəba kimidilər, çünki atama münasibətləri doğma idi.

Ötən əsrin 50-ci illərindən başlayan bu qarşılıqlı ehtiram o qədər saf və ustalıqla qurulub ki, bu günün özündə doğma el-obamızın, əzəmətli Xınna dərəsinin-fərqi yoxdu Gədəbəyə aiddi, ya Tovuza- hansı kəndinə getsək, Dərzi Muxtarın oğluyam desək, həmin o doğma kişilərin ya özləri, ya da övladları bizi mütləq tanıyacaq. Onun əsas qazancı bax bu idi. Sağlığında özü belə ad-san, hörmət, rəğbət, el sevgisi qazandığına görə, çox büruzə verməsə də, fərəhlənirdi. O vaxt biz bunu tam mənasıyla anlaya bilmirikmiş. İndi, üstündən bu qədər zaman keçdikdən və onun ətraf kəndlərdəki hörmətini bir daha görüb-duyandan, üstəlik arxiv sənədlərində müharibədəki igidliyinə, mərdliyinə dair oxuduğumuz sözlərdən sonra adamın içindən belə xoş hisslər keçir: Xoşbəxtəm ki, belə kişinin oğluyam.

Məişət işlərinə çox meyl etməzdi, qoyuna getsin, mal otarsın, məhlədə işləsin –yox. Sadəcə, kömək edərdi. Odun, su, mal-heyvan, təsərrüfat işləri onu çox da ilgiləndirməzdi. Onunku ictimai işlər, idarə, plan və sair idi. Məhz bu xidmətlərinə görə xırda məişət işlərinə çox könül verməsə də, əhaliyə xidmət etdiyi üçün məişət əlaçısı adını almışdı. Əlbəttə, bu da sovet hökümətinin bir işlətmək, yaxud həvəsləndirmə metodu idi- qabaqcıl insanlara belə adlar verilirdi. Amma bu o vaxt üçün hər kəsin ala bilməyəcəyi, yaxud hər kəsə verilməyən bir titul idi- məişət əlaçısı.

Kəndin mərkəzində, məktəbin yanında olan budkası, əslində budkamız hələ də durur. Bilmirəm nəyə görə idi, amma elə o vaxtlardan biz bura papamın budkası deyərdik. Qəribədir ki, hökumətə məxsus olan bu əmlakı biz hələ 60-cı illərdən özümüzünkü, evimiz kimi saymışıq. Məncə, uşaqların hamısının bu budkayla bağlı özəl xatirələri olar. Şəxsən mənimçün bura çox rahat məkan idi. Ata qucağı kimi istiydi. Havanın soyuq vaxtlarında nə vaxt getsən bura isti olurdu. Çox vaxt odun peçi ilə qızdırırdı. Ümumiyyətlə, atam evdə olsun, ya iş yerində, fərqi yoxdu, işləmək üçün özünə ilk növbədə rahat şərait yaradırdı. Məktəb vaxtı üşüyən kimi tənəffüsdə özümüzü verirdik papamın yanına. Qızınır, isti çay içirdik. Sonda, gedənə yaxın qəpik də verirdi ki, bulka alarsan.

Ailəmizin bütün üzvləri tikiş maşınında işləməyi bilir. Özü öyrətmişdi. Təbii ki, əvvəlcə mamamı, sonra isə növbə ilə böyüyüb ağlımız kəsdikcə bizləri-uşaqları öyrədib. Boş vaxtımızda, dərs oxuyub yorulanda deyərdik, ay papa, ver bu hissəni mən tikim. O da baxardı ki, işin sadə hissəsidi, verirdi, amma diqqətli olmağı tapşırırdı. Şalvar bir az asandı, amma pencək qəlizdi, ona konkret usta sənətkar lazımdı. Bizimki sadə hissələrdə kömək etmək idi. Maşını isə əzbər bilirdik, müxtəlif cür tikilişləri, fərqli tikiş

rejimlərini, ziqzaqvari hərəkət elətdirməyi rahat bacarır, hətta xırda təmir işlərini də görürdük. Hərəmizə bir tikiş maşını və tikmək üçün lazım olan digər xırda avadanlıqlar verib ki, evinizdə işlədin. Görürdü ki, bizdən onu kimi usta dərzi olmayacaq. Əslində qınanmalı da deyilmiş, biz bütün günü x-iks, y-iqreklə əlləşirdik, dərzi olmağa nə ehtiyac, zatən qos-qoca usta gözümüzün qabağında idi.

Atam paltar biçəndə çox görmüşük, diqqətlə baxmışıq. Düzdü, cəld işləyirdi, xüsusi ülgüləri vardı, özü düzəltmişdi ki, işi bir növ konveyerləşdirsin, ona görə bəzən kostyumun hansısa detalını biçəndə biz bunun elə də çətin olmadığını zənn edirdik. Amma bir dəfə, konkret 2012-ci ildə, yayda uşaqlarla birlikdə kənddə tətildə olarkən, gəlmişkən məhləmizdəki kartofu çıxaraq, dedik. Hamını komanda şəklində işə cəlb elədim. İş bölgüsü apardıq. Qərara aldıq ki, iki-üç gün səhər tezdən qalxıb işə başlayaq və bu işi uzatmadan bitirək. Uşaqlar da məni həvəsləndirdilər ki, "hə ata, gəlmişkən əmiyə kömək edək". Razılaşdıq ki, nahara qədər çıxaraq, nahardan sonra yığaq. Əvvəlcə azı üç-dörd sotu birdən çıxarıb tökəsi olduq. Günortadan sonra yığmaq məqamı gələndə məlum oldu ki, gün qurutduğu üçün yerdəki kəltənlər adamın barmaqlarının ucunu didir-sıyırır, yığmaq əziyyət verir. Hətta illər öncə bu işi özüm min dəfələrlə etməyimə baxmayaraq, gördüm, nə mənim, nə də şəhər uşaqlarının əlləri daş kimi kəltənlərə dözəcək. Zəng edib həmin vaxt Qovlarda olan bir qohuma tapşırdım ki, gələndə əlcək alsın. Amma əlcək gələnə qədər boş qalmamaq, həm də kartofu gün aparmaması üçün özüm tez bir-iki cüt əlcək tikməyə girişdim. Fikirləşdim ki, buna böyük bir ustalıq ha lazım döy. Maşın hazır, parça da ki, var. Əvvəl usta bunu necə edərdi deyib tez kağızdan bir ülgü kəsdim. Parçanı biçib, tikdim. Məlum oldu ki, ikisini də eyni əl üçün biçmişəm. Ona görə də ələ geyinəndə qəribə bir şey oldu. Bu səhvimi düzəltdim, indi də barmaqlıqlar düzgün alınmır. Xeyli biçdim, tikdim, sökdüm...bir neçə saat əlləşməli oldum. Demə, şalvarın ilk baxışda sadə görünən, mənim əlcəyə bənzətdiyim sağ və sol ciblərini bir göz qırpımında biçib tikən sənətkar dərzi istədiyi qəliz həndəsi fiquru, məsələn, əyrixətli trapesiyanı rahat şəkilləndirə bilirmiş.

Ailə həyatı

Atamgil Tovuzdan köçəndən sonra iş yerinə yaxın olması üçün bir müddət Keşkənddə Əmir kişinin evində yaşayıblar. Əmir kişi universal usta olub, atamın xətrini çox istəyirmiş. Kolxozun dəmirçisi imiş. Metalı körükdə əridərək kolxoz üçün kotana ağızlıq, araba təkərinə dəmir şin, at nalı, kərənti, oraq, dəhrə, balta, çəkic, gürz və sair, eyni zamanda, maşa, ərşin, peç, çömçə, kəfkir, sini və digər məişət əşyaları da düzəldirmiş. Müharibə vaxtı raykom kolxoza baş çəkməyə gələndə aralıdan Əmir kişinin araba təkərinə şin düzəltdiyini görür və yaxınlaşıb usta işi bitirənətən heyrətlə baxır. Axırda rəsmi göstəriş verir ki, usta müharibəyə aparılmasın.

Bir il sonra atam əmisi Musa kişinin kəndimizdəki boş olan kürsülü, geniş otaqlı və qabağında çardağı olan kərtmə evinə yığışıb. Bu o dönəm imiş ki, camaat hələ indi Ayaqkənd dediyimiz köhnə kənd yerindəymiş.

Ənənəyə uyğun olaraq yenə rayonda 9 may tədbiri keçiriləcəkmiş. Bu dəfə də rəsmi dəvət alıb. Gedəndə şux geyinməli, orden-medalları sinəsini bəzəməliydi. Həmişə də sovet hökuməti qələbə münasibətilə yeni təltif, medal, mükafat, bir neçə dəfə qızıl saat və sair verib. 1956-cı ilin 9 may günü mükafatı ikiqat olub. Birini rayonda sinəsinə taxıblar, o birini isə kəndə qayıdanda qucağına qoyublar. Bir gündə iki sevinc hissi yaşayıb. Hökumətinki keçəri olub, yəqin bir neçə dəfə sinəsinə taxıb ya şəkil çəkdirib, ya da yenə 9 may tədbirinə qatılanda kostyumunun döşündə 1-2 saatlığına parıldadıb sandığa qoyub. Amma ikinci sevinci ömrü boyu yaşayıb və gündən-günə, ildən-ilə artdıqca artıb. Bu dəfəki xoşbəxt balasının-ona daim bol sevinc yaşadacaq uşağın adını Arif qoyub.

Ayaqkənddə bir az su qıtlığı olub. Məhlələr, əkin yerləri də balacaymış. Əksər adamın torpağı ərazinin güney olması ucbatından yaxşı məhsul vermirmiş. İndiki kənd yerində isə yaxşı gur sulu 4 bulaq bu gün də göz yaşı kimi dumduru, həm də buz kimi şırhaşır axır. Əsasən bu iki səbəbə görə, eyni zamanda, bərəkətli torpağı və gen-bol məhlə yerləri üçün yetərli ərazisi olduğundan

1950–cı il ərəfəsində köç başlayıb, camaat yavaş-yavaş indiki məskənə daşınıb. İlk məhlə tutanlardan biri də atam olub. Əvvəl hamı yaşamaq üçün qaradam tikib. Atamgil də 1956-cı ilin payızında buraya köçüb, bir neçə ay qaradamda olub, növbəti ilin yazında kürsülü, bir mərtəbəli kərtmə ev tikdirib, avqustda içinə köçüblər. Fəxrəddin, Afayət və mən o evdə dünyaya göz açmışıq.

İlk 4 illik məktəb köhnə kənddə, Köçünbaşı deyilən yerdə 1940–ci il ərəfəsində açılıb. Müəllimlər Qədir və Həsənəli (Qazaxdan gəlibmiş) olub. Kənd yeni əraziyə köçəndə məktəbi də təpə deyilən əraziyə (hazırkı qəbiristanlığın giriş tərəfi) gətiriblər. 1959-cu ildə qardaşım Xaliqlə bacım Kifayət (ilk illər soyadları Gülməmmədov kimi yazılırmış, sonradan Məmmədov yazılıb) o vaxtın yetirmələri olan Müsəllim Qədir, Fərman Hüseyn, Məzahir İsmayıl, İsgəndər Məhəmməd, Eyvaz Talıb, Arif Müseyib oğlu, Kəklik Səlim, Qətibə Abbas, Gözəl Salman qızı və digər uşaqlarla birgə birinci sinifə təpədəki məktəbə gediblər. O zaman məktəbin direktoru Yusif müəllim, müəllimlər isə Qəşəm və Şəhruz olublar. Məktəbin ikicə otağı varmış. 1 və 3-cü sinif şagirdləri bir, 2 və 4-cü sinif şagirdləri isə digər otaqda dərs keçirmişlər.

1960-ci ildə məktəbi yenidən hamı üçün daha əlverişli əraziyə köçürüblər. Bu dəfə məkan olaraq indi məktəbin yanı dediyimiz əraziyə, ətrafdakı Yoğunbulaq Nəmxoş, Qaraboyunlar kəndləri və hələlik rəsmi kənd statusu olmayan Səflər deyilən yaşayış yerindən gələn uşaqlar üçün orta nöqtə sayıla biləcək yerə köçürüblər. Təzə məkanda, əsasən, kənd camaatının vəsaiti hesabına azca kürsülü olmaqla cəmi 4 kərtmə sinif tikilib. 1963-cü ildən məktəb yeni status qazanıb, səkkizillik olub. 9-10-cu sinifi oxumaq üçünsə gərək qonşu kəndə-Sarıtalaya gedəydin.

Məktəb sevgisi

Atam Xaliqi Sarıtalada yox, bizdən təxminən 8 km aralıda olan Nərimankənd məktəbində oxudub. Çünki qışın şaxtasında qarı yara-yara, yazda, payızda isə palçıq ayaqlayıb hər gün Öküz dağının ətəyinə ayaq döymək elə də asan deyilmiş. Nərimankənddə isə məktəb elə bizim Sarıtala məktəbi kimi 10 ilik imiş. Həm də

mamamın bibisi Nisə xanımın oğlu İbad müəllim Nərimankənd məktəbinin ədəbiyyat müəllimi olaraq yaxşı pedaqoq, bacarıqlı tədris işçisi kimi ad-san çıxarıbmış. Beləcə, əsas şərt kimi dərsə gedib-gəlməyin rahatlığını, bu zaman çox vaxt itkisi olmamasını, yaxın qohumların evində (İbad müəllim və Gilas bibi) qalması üçün uyğun şəraiti və məktəbin müəllim kollektivində bacarıqlı müəllimlərin uğurlarını əsas götürüblər.

Bunları yazmaqla demək istəyirəm ki, atam məktəb, müəllim, oxumaq, dərs, kitab-dəftər məsələsində çox diqqətli və məqsədyönlü idi. Əlbəttə, çox valideynlər istəyirlər ki, uşaqları yaxşı oxusun, hamı deyir "a bala, oxu", amma atam istəyini konkret hərəkətlərlə, əməllə reallaşdırırdı.

-Atan hardadı?

-Məktəbin yanında.

Çobansığnaq kənd tam orta məktəbinin həyəti. Soldan: çıxış edən Muxtar Məmmədov, Şəmil Məmmədov, Əşrəf müəllim, Məhəmmədəli müəllim

İllər boyu bu dialoqdakı sualın hazır cavabı belə idi. Çünki əksər vaxt gününün çox hissəsini məktəbin yanında olurdu, orada işləyirdi. İş yeri-budkası məktəbin hasarına söykənəcək yerləşirdi.

Özü də bir növ məktəbin ictimai dayaq adamlarından biriydi. Dar macalda məktəbə dəstək vermək, müəllimi yersiz qınaqlardan müdafiə etmək lazım gələndə dəfələrlə irəli durmuşdu. Yəni həm fiziki, həm də mənəvi cəhətdən harda olmasından asılı olmayaraq sanki məktəbin yanındaydı, məktəbə və müəllimə xüsusi önəm verirdi.

Kənd yeri olduğu üçün atamgilin işi rejimi bir az sərbəst idi. Bu mənada ki, yanında rəhbərlik ha yoxdu, nə vaxt istəyirsən get, ya gəl. Ancaq hamı saat 9 radələrində işə gəlir, axşamüstü saat 6 radələrində də işdən çıxırdılar. Lap tabelə qol çəkən idarə-müəssisə işçiləri kimi.

Məktəbin yanından-mərkəzdən enib gələn yol bizim evlə qənşərdi deyə aynabəndimizdən aydınca görünür, gəlib–gedənin kim olduğunu, nə aparıb-gətirdiyini rahatca müşahidə etmək olur. Əksər hallarda həmişə gəldiyi vaxtda yola boylanar, əlində nə gətirdiyini yəqin etməyə çalışardıq. Belə ekspertiza-təsbit etmə işində Afayətlə mən həvəskardıq. Adətən gələndə ya qoltuğunda gün ərzində tikdiyi paltarın hansısa hissəsini gətirirdi ki, axşam evdə tamamlasın, ya da əlində hərdən dükandan aldığı ərzaq olardı. Bəzən isə qəribə bir bağlama ilə gəlirdi. "Atam nə alıb, görən gətirdiyi nədi" deyə proqnozlarımızla bir-birimizi yorurduq. Evə çathaçatda qabağına yüyürüb "ay papa, bu nədi" deyib kişini elə doqqazdaca sual yağışına tuturduq:

- Kitabdı.
- Qışın ortasında nə kitab, dərsliklər sentyabrda alınmırmı?

Şkafın üstünə qoyulmuş bağlama hələ açılmayıb. Bu məqamda mamam da dilləndi: *Yenə yazıb doldurub, bu neçə manat tutdu?* Papam özünə məxsus tərzdə azca gülümsəyərək 7 manat 80 qəpik deyəndə gözümüz kəlləmizə çıxdı. Mamam da qınanmalı deyildi, keçən ay 5 manat 60 qəpiklik bağlamada 2 qalın 1 nazik kitab gəlməmişdimi, onu oxuyub qurtarıb ki. Həm də o vaxt, 70-ci ildə kitab üçün 5 manat çox böyük məbləğ idi. Mamamın bu arqumentləri biz uşaqlara da ağlabatan görünürdü. Axı 20 qəpiyimiz

olanda sevincimizin həddi-hüdudu olmurdu, o bir abbası bizim üçün milyon dəyərindəydi. İndi isə birdən-birə 7 manat...

Üstündə rusca, təxminən "Moskva şəhəri, Puşkin küçəsi, kitab evi" yazılmış bu cür səliqəli bağlamalar, demək olar ki, hər ay, ən yaxşı halda iki aydan bir mütləq gəlirdi. Riyaziyyatın müxtəlif sahələrinə aid olan bu ən mötəbər kitabların sifarişçisi həmin vaxt məşhur Sarıtala kənd orta məktəbinin 9-cu sinifində oxuyan Arif Məmmədov idi.

Arif Sarıtala məktəbində oxuyanda məktəbin bir internat sistemi də varmış. Bu sistem uzaq kəndlərdən gələn uşaqların həftə ərzində dərsdən sonra məktəbin müvafiq binasında qalaraq yemək yeməyinə, dərslərini hazırlamasına imkan verirmiş. Çox vaxt Arif də internatda qalırdı deyə mən onu nadir hallarda görürdüm. Onun qışda qapımızda məktəbə gedən vaxt yadımda qalan bir anlıq görkəmi var: əlində diplomatlara məxsus qara, azca uzun, iki dilli, təxminən 40-50 sm ölçüdə bir əl çantası, əynində dəst kostyum, qara, qalın parçadan (yəqin drap imiş) ikibortlu palto, ayağında qara botinka.

9-cu sinifdə oxuyanda 10-cu siniflər üçün keçirilən imtahana düşən misal və məsələləri müvəffəqiyyətlə həll etməyi onu daha çox məşhurlaşdırmışdı. Artıq 10-cu sinifdə oxuyanda olimpiada yarışlarında qazandığı uğurlara görə ilk növbədə məktəbin, müəllimlərin və ümumiyyətlə camaatın sevimlisi olmuşdu. Onun dərs aldığı adamlar sözün əsl mənasında dövrünün dahiləri imiş. Riyaziyyat-Məsim müəllim, fizika- İlyas müəllim, kimya- Talıb müəllim, ədəbiyyat-Abdulla müəllim, ingilis dili- Camal müəllim. Bununla yanaşı, konkret o sinifə dərs keçməsələr də məktəbin digər sadaladıqlarımdan geri qalmayan və istedadı ilə seçilən digər müəllimləri də olub: İsrail müəllim-riyaziyyat, Vəli müəllim-tarix. Bir işdə var ki, bu məqama çatmağında ilk müəllimi olan və tələbkarlığı ilə seçilən Məhəmmədəli müəllim, riyaziyyatın təməlini öyrədən Rəhimov Hüseyn müəllim minnətdarlıqla anılmalıdır.

Bir dəfə atamla bağlı ailədaxili söhbətlərdə onun uşaqları üstün məktəblərdə oxutmağa çalışması, daha yaxşı geyindirməsi,

əlavə kitab-dəftərə həvəslə para xərcləməsi barədə reallıqları danışanda bayaqdan diqqətlə qulaq asan uşaqlar çətin təkzib olunan bir fikir söylədilər. Dedilər, çox güman ki, nəvələrinin- Ziyadxan, Alim, Aqil, Gülxar, Türkay və Ərtoğrulun üstün məktəblərdə və xarici universitetlərdə təhsil ala bilməsi Muxtar babadan keçmə irsi xüsusiyyətin nəticəsidir.

Özəllikləri

Qabağına yad adam keçsə, görsə ki, qalmağa yeri yoxdu, evə dəvət edəcəkdi. Təyinatla kənddə dərs deməyə gələn müəllimdi, qaz xətti çəkəndi, yoxsa kilim satandı, fərqi yoxdu, yanına salıb gətirəcəkdi. Hazır yemək varmı, yoxmu, ondan yana çox narahat olmazdı, prinsipi buydu-kasıbın olanından, nə var gətirin süfrəyə. Qonaq qəflətən gəldiyi üçün bəzən yeməyin az ola biləcəyindən, ya bəlkə bir az layiq xörək olmayacağından yana narahatlıq olurdu, amma bu, kişinin heç vecinə deyildi, nə cür yemək olsa da, qonağı ruhlandırır, iştahla süfrəyə dəvət edir və məqsədinə çatırdı-ac və yad adama toxtaqlıq verirdi. Qış vaxtı dağ kəndində hər otağın isidilməsi problem olur, məlum məsələdi. Peç bir otaqda olduğundan hamı bir otaqda yatmalı olur. O zaman gələn qonağa harda yer salmaqla bağlı tərəddüd yarananda atam məsləhət görürdü ki, narahat olmağa dəyməz, şərait nə cür tələb edir elə edək. İndi bu cür məqamları xatırlayanda aydın olur ki, adam ağır müharibə görmüşdü deyə elə müharibə psixologiyası ilə də qərar verirdi. Deməli, yaxşı xörəyin hələ hazır olmaması, ya qışın soyuğunda yerin darısqallığı qonaq qalmağa ehtiyacı olan yad adamın gözardı edilməsinə səbəb ola bilməzmiş.

Bir dəfə 1981-ci ilin yaz vaxtı, iyunun ortaları olardı, kəndin qırağındakı Gölyeri və Daşınüstü deyilən yerdə sovxozun kartof sahəsini dərmanlamaq üçün bir dəstə aqronom gəlmişdi. Axşamüstü bir də gördük bu adamlar bizim qapıya tərəf gəlirlər. Atam evin böyrünə sarı çıxdı və əvvəldən dəvət elədiyi qonaqları qarşılayıb gətirdi. Gəlişlərindən bildik ki, bu adamlar gecə bizdə qalacaqlar. 3-4 kişi toyuq kəsməklə yola verilməz ki. Özü də hələ beçənin ətlənmədiyi bir vaxtda. Qoca toyuqlar da, aydın məsələdi, bir işə

yaramaz, üz ağartmaz. Əlac qaldı yenə körpə quzulardan birini kəsməyə, tərs kimi onlar da yaxşı əməlləşməyiblər. İnsafən, bu cür narahatlıq anlarında biz uşaqlara qonaq yola salmaq bir az çətiniydi. Çünki mamam bir il olardı rəhmətə getmişdi, biz özümüzü güclə girələyirdik. Yəqin bu səbəbdən çox büruzə verməsək də, içimizdə deyinir, öz-özümüzə söylənirdik ki, əşi, bu kişinin də işi-gücü qurtarıb elə bil, qoy bu adamları sovxozun malını-qoyununu yeyib dağıdanlar qonaq etsin, bizə nə aidiyyəti var. Amma deyinsək də, deyə-gülə quzunu kəsib pörtdəmə elədik, qəşəng yemək-içmək düzəldi və əlbəttə, qonaqlı-qaralı hamımız üçün xoş oldu.

Ailədə sakit adam idi, dava-dalaşı xoşlamazdı. Məntiqsiz danışanda, hansısa işi ciddi səbəb olmadan yarıtmayanda isə təbii əsəbləşməyi olurdu. Amma heç bir uşaq deyəmməz ki, papam hansımızasa bir şillə vurub. Dəcəllik edəndə, günün altında çoxlu top oynayıb sözünə baxmayanda, qışda bütün günü xizək sürəndə mamam məni danlayar və döyərdi. Eşitdiyimə görə Arifi də döyüb-danlayıb, Keşkəndə futbol oynamağa getdiyi üçün. Fəxrəddini bəlkə məndən də çox. Amma Afayəti döydüyünü görmədim, deyəsən, o, özünü döydürmürdü. Kəsəsi, cızından çıxana öz yerini göstərmək işinə mamam baxırdı, səhvlərimizi bilib-eşitsə də atam nə danlayır, nə də döyürdü. Şəxsən mənim üçün ondan böyük danlaq yoxuydu. Ürəyimdə deyirdim kaş danlaya, bu zülm bitə. Onunsa sakit qınağı, içdən narazı qalmağı, incidiyini bədən dili ilə büruzə verməsi mamamın şilləsindən çox təsirli idi. Bəzən adi şıltaqlığa görə mamam vurmaq istəyəndə "*qadan alım*" deyib qucağına basdığı və qoruduğu bizdən bu dəfə küsdüyünü duymaq dünyanın ən böyük əzabı idi. Mənə görə, bu, daha tərbiyəvi idi. Belə vəziyyətdə özümü qınayır, özümə söz verirdim ki, bir də belə etməyəcəm. Kəsəsi, o bizi heç incitmədi. Elə biz də onu incitmədik, problemlərimizi ona yük eləmədik. Oxuduq, instituta girdik, iş tapdıq, işlədik, ailə qurduq, amma ona problem yaşatmadıq.

Kənd yerində yaşamağına baxmayaraq atam həmişə səliqə-sahmanlı geyimi, kostyumunun daim ütülü olması ilə seçilirdi. Palçıqlı, tozlu yollarla gedib gəlməsinin fərqi yoxuydu, ayaqqabısı təmiz olacaqdı, vaxtlı-vaxtında mazlamaqdaki öz yerində. Bir yana

gedəndə sürətli yerimək xasiyyətiydi, yanındakı adam “məni də gözlə” deməkdən yorulurdu. Yemək, içmək məsələsində adamın beyninə sanki bəlli proqram yazılmışdı, qədərincə yeyirdi, doyunca yox. Ömrü boyu Xarrat Məbudun düzəltdiyi taxtda yatdı, mən gözümü açandan belə gördüm, bəlkə də bu səbəbdən yaşın fərqi olmadı, qaməti daim düz oldu.

Coğrafiyanı, xüsusilə xəritəni yaxşı bilirdi. Dünyanın böyük ölçülü xəritəsini evdə divara vurmuşdu. Təxminən elə bir xəritə iş yerində də asılmışdı. Hərdən bizi, elə lap başqa uşaqları da ərklə, özünəməxsus sorğu-sual eləməyi varıydı. Mühüm məqamları,

məsələn, materikləri, qitələri, strateji coğrafi boğazları- Bosfor, Cəbəllütariq və sair, yüksəklikləri, çayları sadə dildə izah edirdi. Dunay çayı barədə, xüsusilə də onun hansı ölkələrdən keçdiyini mütləq soruşardı. Sanki bir Dunay sevgisi vardı. Məncə əsas səbəb bu nəhəng çayı zamanında vuruşaraq keçməsi idi. Danışırdı ki, Dunayı keçmək üçün dəfələrlə cəhd ediblər. Bəzən çayın ortasına çatanda almanlar vururmuş deyə nə qədər insan batıb, kimlərsə böyük buz parçasının üstündə axıb gedib. Dunayı səhərə yaxın keçdiklərini, keçən kimi soyuqdan donmamaq üçün sahil boyu o tərəf bu tərəfə qaçmağa başladıqlarını, onlarla əsgərin şaxtadan donduğunu maraqla danışırdı.

Tarixə aid kitablar oxumağı xoşlayırdı. İş stolunun üstündə Ştemenkonun "Baş ştab müharibə illərində" kitabı, Mirzə İbrahimovun "Gələcək gün" əsəri olduğunu görmüşdüm, şeir kitabları və sair də var idi. 1990-cı il dönəmiydi, latın əlifbası ilə yazılmış kiçik formatlı kitab oxuduğunu gördüm və doğrusu, mənə təəccüblü gəldi. Onda ölkə hələ latın qrafikasına keçməmişdi. Əvvəl fikirləşdim ki, yəqin kimsə verib, oxuyanmasa da kitabdı deyə kənara qoymayıb, saxlayıb. Deyəsən, Molla Cumanın şeirləri idi, götürdü və həmən oxudu. Dalınca izah elədi ki, onlar oxuduğu dövrdə -30-cu illərdə dərslər məhz latın əlifbası ilə keçilirdi.

Təbiəti və cəmiyyəti düzgün anlamağı, onların ahəngini duymağı bacarırdı. Aya baxıb gələcək günlərin necə olacağını, yağış, qar, quraqlığın nə qədər davam edəcəyini bilirdi. Fəsillərin özəlliklərini, məxsusi günləri və dönəmləri- Quyruq doğduğu vaxtı, böyük və kiçik çilləni, boz ayı, çərşənbələri, yazın ilk üç gününə baxıb baharın, yayın, payızın təxminən necə olacağını düzgün xarakterizə edir, bizə də anladırdı. Yeri gəlmişkən, *quyruq doğdu* ifadəsi bəzən yanlış olaraq *quyruq dondu* kimi deyilir. Professor Bəşir Əhmədov "*Etimologiya lüğəti"* kitabında bunu quyruq formasında olan Ülkər (qədim adı Quyruq olub) ulduzunun avqust ayının 6-15-i arasında doğması ilə izah edib.

Atam bizim istifadə etmədiyimiz coğrafiya kitablarını çox həvəslə oxuyurdu. Astronomiya kitabını vərəqlədiyini də

görmüşdüm, amma maraq üçün baxdığı qənaətindəydim, fikirləşirdim ki, yəqin bir neçə səhifədən sonra oxumaz. Bu yaxınlarda Dilqəm müəllimin oğlu, dostumuz İlhamdan eşitdim ki, onlar bizim məktəbə hazırlığa gələndə atamla söhbət zamanı göy cisimlərinin yerini və trayektoriyasını kağızda çəkib uşaqlara izah eləyirmiş.

Yaxşı adam tanımağı vardı. Adamlar kimi atların da dilini bilirdi. Mənim ağlım kəsəndən qapımızda at olub. Atamın xrom çəkməsi, buna uyğun qalife şalvarı da vardı. Qışda uzaq kəndlərə gedəndə bunları geyinirdi ki, atın üstündə ayaqları üşüməsin. Toya-şana atla getməyi xoşlayırdı. Özüm şahidi olmamışam, amma danışırlar ki, bizlər şəhərlərə dağılışandan, atam özü də pensiyaya çıxandan sonra atı saxlamaq çətinləşdiyi üçün bir çox arqumentlər söyləyib onu inandırır və atı satmalı olurlar. Bir neçə ildən sonra qardaşım məhlədən kartof daşımaq üçün bir eşşək alıb gətirir. Atı satıb əvəzinə eşşək alınması ilə barışanmadığı üçün "*bunu minib mərəkəyəmi gedəcəyik*" deyən atamın bu sözü kənddə bir məsəl, yanaşma kimi tez-tez işlədilir.

Sevimli dilboz atımız biz uşaqların da dostuydu. Onunla o qədər səfərlərə çıxmışıq, at arabasıyla ot, odun, kartof daşımışıq, birgə çətin günlərimiz çox olub. Araba ilə ot, odun gətirmək özü bir aləmdi. Əvvəla, eyni iş dalınca gedən başqaları kimi piyada gedib yol yorğunu olmursan. İkincisi, kəmiyyət və zaman baxımından da irəlidə olursan, az vaxtda çox iş görmüş olursan. Əziz oxucular, at arabası deyib üstündən keçməyək. Banının eni 1,5 m, uzunu 2 m, araları 10 sm-dən bir düzülmüş səliqəli qalın taxtalardan ibarət alt hissəsi, təxminən yarım metr hündürlüyündə və 30 sm-lik taxta arakəsmələrlə bölünmüş və alt hissədəki yan çərçivələrə keçmə üsulu ilə bərkidilmiş yan məhəccərləri ilə bərabər, diametri təxminən 70 sm olmaqla palıd taxtası, topu və üzünə çəkilmiş dəmir şindən mükəmməl düzəldilmiş təkərləri, iki təkəri birləşdirən qalın oxu və atın xamutuna bağlanan azı 2,5 m–lik qolları olan taraz at arabası hoyumuza çox çatıb. Bir məqamı da deyim ki, yüklü araba ilə atı idarə etmək asan deyil. Yağışdan sonra enişdə, buz bağlamış yoxuşda usta tərpənməsən ot, odun cəhənnəm, at ciddi zədə alar.

Belə olmaması üçün hər çətin vəziyyətdə özümüzlə bərabər atı da qorumağı birinci vəzifə bilmişik.

Koroğlu kimi çapıb çənlibellərdə gəzdiyimiz vaxtlar da olurdu. Bərk çapdığımızı, atın yalmanına yatıb yel kimi uçduğumuzu görən kişilər deyirdi "ehtiyatlı ol, at səni yıxar". Dalınca da Ədil əmimin alapaça atından, özünün qoçaqlığından söz salırdılar. Görənlər danışırdı ki, at gedə-gedə Ədil atın qarnının altından fırlana bilirmiş.

İşi üsulla yerinə yetirmək atamın əsas prinsipi idi. "İşi höjətlə yox, hajatla görərlər" el misalı xoşladığı deyim idi. Qapıda-bajada nə iş görsə müvafiq alətlərin köməyi ilə işi asanlaşdırmağa çalışırdı. Elə bir az öncə qeyd etdiyim at arabası, balta itiləmək üçün çarx, ağac çəkmək üçün motorlu mişar, ot yığmaq üçün eni 1 m-lik dırmıq və digər əşyaları düzəldib işlətməyinin əsas məqsədi yaşamı yüngülləşdirmək, işi üsulla görmək idi.

Atın dilini bildiyi kimi, arının da sirrini mənimsəmişdi. Odur ki, atamın dövründə qapımızda azı 5-10 arı ailəsi olub. Arının beçə verdiyi vaxtlar çox vaxt müşahidəçilik mənə tapşırılırdı. Onda bir-iki gün havanın qızmar vaxtı saatlarla arının qabağında oturub beçənin yeşikdən çıxhaçıxda olduğu, hansı səmtə, hara düşdüyü haqda evdəkilərə xəbər verdiyim günlər olurdu. Ətrafdakı ağaclara qonan beçənin necə, hansı üsulla yeşiyə yığıldığını atama baxıb öyrənmişdik. Hətta bir dəfə papam gələnədək bacımla ikimiz bağımızdakı yekə armuda qonmuş şah beçəni tutmaq üçün nərdivan qoyub hündür budaqda salxımlanmış arıları lələklə yeşiyə yığa bildik. Əziz qonaqlar, yaxud böyük qardaşlarım yayda şəhərdən gələndə atamın həvəslə bal kəsməyi xüsusi xoş ovqat yaradırdı. Mənim üçünsə balın bir başqa xeyri o idi ki, birdən küsüb, acıq edib yemək yeməyəndə birinci mərtəbədə bankalara yığılmış çiçək balından bir nəlbəki kirimişcə yeyib az qala bir gün etirazı davam etdirə bilirdim.

Həvəskar kimi rəsm çəkməyi də bacarırdı. Biz uşaq olanda rəsm dərsi keçən müəllimin verdiyi tapşırıqları yerinə yetirə bilmirdik. Ev, təbiət mənzərəsi, cüyür, maral, dovşan və sair, xüsusilə adam portretləri çəkmək alınmırdı ki, alınmırdı. Neçə

vərəqi korlayır, bezir, bu işi kənara qoyurduq. Bu halımızı görüb bircə dəfəyə ətraf mənzərəsi olan qəşəng həyət-bacalı ev, göydə uçan quşlar, səma, buludlar, yaxınlıqdan keçən maşın yolu, qapıya gələn cığır, ağaclar, güllük və sair əlamətləri olan bir rəsm yaradırdı. Bu xüsusiyyət–qabiliyyət bizim Gülxarda da var, yəqin babasından keçib.

Atam həm fiziki, həm də psixoloji güclü adamıydı. Qürurluydu. Məncə doğal xarakterləri ilə bərabər müharibə onu belə möhkəm etmişdi. Ölüm, itim, faciə, uğursuzluq onu təsirləndirərdi, ancaq sarsıda bilməzdi. Gözünün qabağında qolu-qılçası göyə səpələnən, sağ qalanların qan içində inildəyənlərin və meyitlərin üstündən adlayıb keçməyə məcbur olduğu amansız anları yaşayan görən adam daha nəyə təəccüblənəcək, təsirlənəcək və göz yaşı axıdacaqdı ki. Mən atamın ağladığını bircə dəfə gördüm...mamamın aynabəndimizə qoyulmuş cənazəsi önündə mənim boynumu qucaqlayıb ağlayanda o, vəfalı yarını, bizsə ömür boyu axtaracağımız anamızı itirdik.

Gülxar Murad, Fəxrəddin Muxtar, Muxtar Gülməmməd

Xeyli keyfiyyətlərini sadaladım. Amma iddia edəmmərik ki, ideal adam idi. Yanlışı, əyrisi, səhvi olmamış deyildi, hər halda. Lakin utancverici davranışları və danışığı yoxuydu.

Təbi gələndə saz çalırdı. İndi də göz bəbəyi kimi qoruduğumuz sazı məndən böyükdü. Sazda bir çox havalar ifa edirdi: Ruhani, Baş sarıtel, Qaraca və sair. Bir iki havadan sonra deyirdi: indi də Qahramanı havası. Müharibə qəhrəmanı təsadüfənmi bunu çalırdı, bəlkə bizə demək istəyirmiş ki, o, qəhrəmandı. Bilmirik, o an ağlımıza gəlməyib. İndi, üstündən illər ötəndən sonra arxivlərdən tapılan, məxfiliyi aradan qaldırılan və üstü açılan sənədlərdən anlayırıq ki, müharibədən, qanlı-qadalı günlərdən danışan, sinəsi medallarla dolu olan adamın sinəsi qəhrəmanlıq tarixi imiş. Şəhərlər, kəndlər alan, Dunay kimi nəhəng çayları vuruşaraq keçən, tanklar, toplar, pulemyotlar susduran mübariz insanı sağlığında tam anlaya bilməmişik. Bilməmişik ki, qarşımızdakı, yanımızdakı adam usta sənətkar, tanınmış Dərzi Muxtar olmaqla bərabər sözün əsl mənasında Qəhrəmandı.

Sayğılarla, Şirzad Məmmədli

Sözardı:

Bu yazı atamın haqqında yazılan ilk deyil. Onun haqqında ya müharibə mövzusunda, ya da usta sənətkar kimi xırda-para məqalələr qələmə alınıb. Ən sanballılarından birini 80-ci illərin əvvəllərində Tovuzun "Həqiqət" qəzetində hörmətli müəllimimiz Talıb Mahmudov yazmışdı: Muxtar dayı.

Bir dəfə də qarlı qış günü Bakıdan "Sovet kəndi" qəzetindən gəlmişdilər. Müxbirləri rayonun hərbi komissarlığından bizə göndərmişdilər. Dunayı necə keçdikləri barədə danışdırırdılar.

Uşaq vaxtı atamın müharibə söhbətlərinə, sadəcə, qulaq asırdıq. Təxminən 1987-ci ildən, aşkarlığın yaranması ilə Stalinin

repressiyaları haqda gizlinlər açığa çıxdıqda "rəhbərin", o cümlədən sovetlərin hamı kimi bizi də qırıb–çatdığını, üstəlik torpaqlarımızı ermənilərə verdiyini əsas gətirib atamla çoxlu müzakirələr edirdik. Sovet hökuməti uğurunda nahaq bir belə əziyyət çəkdiklərini, minlərlə soydaşımızın həlak olduğunu tək mən demirdim. Sonrakı illərdə bizim dağların o üzündəki insanlarımızın yurdlarından qovulması, 20 Yanvar qırğını, Xocalı faciəsi, rayonların işğalı və digər hadisələr "sovetlər uğurunda vuruşmağa dəyərdimi" tipli boz sualların aktuallığını artırdı. Şuşa işğal olunanda isə qələbə gününün adını çəkən olmadı, "nə qələbə", "kimin qələbəsi" sualları hamını kədərə bürüdü, araya sükut çökdü. Vətən uğurunda vuruşan gənc nəsillə heç bir günahı olmayan yaşlılar bir müddət danışmadılar... Heç kim qınanmalı deyildi. Biri yad torpaqda qəhrəmanca döyüşmüşdü, digəri torpağı yadlardan qorumağa çalışırdı.

Amma vuruşan oğullar gec-tez atalarının qəhrəmanlığını öyrənməlidi.

İstinadlar:

http://podvignaroda.mil.ru/?#tab=navHome

https://obd-memorial.ru/html/info.htm?id=61776185

https://obd-memorial.ru/html/info.htm?id=61776186

https://obd-memorial.ru/html/info.htm?id=60730068

https://obd-memorial.ru/html/info.htm?id=60730111

https://azvision.az/news/60364/stalinin-baki-haqqinda-gizli-yazismalari-%E2%80%93-arasdirma-senedler.html

https://histrf.ru/lenta-vremeni/event/view/nastuplieniie-sovietskikh-voisk-pod-stalinghradom

https://pamyat-naroda.ru/documents/view/?id=451009273

https://publika.az/news/bilgi/61716.html

http://podvig-naroda.ru/?#id=23598867&tab=navDetailManAward

https://pamyat-naroda.ru/heroes/?adv_search=y&last_name=%D0%9C%D0%B0%D0%BC%D0%B5%D0%B4%D0%BE%D0%B2%20&first_name=%D0%9C%D1%83%D1%85%D1%82%D0%B0%D1%80&middle_name=%D0%A2%D1%8E%D0%BB%D1%8C%D0%BC%D0%B0%D0%BC%D0%B5%D0%B4%D0%BE%D0%B2%D0%B8%D1%87&date_birth=1924&group=all&types=pamyat_commander:nagrady_nagrad_doc:nagrady_uchet_kartoteka:nagrady_ubilein_kartoteka:pamyat_voenkomat:potery_vpp:pamyat_zsp_parts:kld_polit:kld_upk:kld_vmf:potery_doneseniya_o_poteryah:potery_gospitali:potery_utochenie_poter:potery_spiski_zahoroneniy:potery_voennoplen:potery_iskluchenie_iz_spiskov&page=1

https://pamyat-naroda.ru/warunit/108%20%D0%B3%D0%B2%20%D1%81%D0%B4/

P.S. Növbəti səhifələrdə atamın təltifləri, ildönümlərdə verilən medallara aid sənədlər və doğmalarımızla bərabər Keşkənd sovetliyindən olan digər itkin düşmüşlər barədə siyahı təqdim olunur.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən yubiley medalı ilə təltif olunub



За нашу Советскую Родину.

СЛАВА ГЕРОЮ
ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ
ВОЙНЫ.

ГРАМОТА.

Гвардии__ Младший сержант _ _ _ _ _
_ _Мамедов Мухтар Тюльманович._ _

Верховный Главнокомандующий Маршал Советского Союза товарищ Сталин ОБЪЯВИЛ Вам БЛАГОДАРНОСТЬ:

1. За освобождение города Николаев.
2. За освобождение города Одесса.
3. По прорыву обороны противника южнее Бендеры.
4. По овладению областным центром Украины городом и крепостью Измаил.
5. По форсированию реки Тисса и овладению городом венгрии Сегед.
6. По овладению на территории венгрии городом и крупным Ж.Д. узлом Хольнок.
7. По форсированию реки Дуная южнее Будапешта и прорыву обороны противника на западном берегу реки.
8. По разгрому окруженной группировки противника и овладению столицей Венгрии городом Будапешт.
9. По разгрому танковой группы немцев юго-западнее города Будапешт.
10. По овладению городами Венгрии Залаэгерсег и КЕСТЕЛЬ.

КОМАНДИР В_Ч 20129
ГВАРДИИ ПОДПОЛКОВНИК
"ЗОЛОВЬЕВ".

Şəhərlərin alınmasına və çayların vuruşaraq keçilməsinə görə Stalinin Təşəkkür Fərmanı



ВЫПИСКА ИЗ ПРИКАЗА

...445 ГВАРДЕЙСКОМУ ПУЛЕМЕТНОМУ АРТИЛЛЕРИЙСКОМУ КРАСНОЗНАМ. ПОЛКУ

6 июля 1945г. № 84.

ЗА ОТЛИЧНУЮ БОЕВУЮ И ПОЛИТИЧЕСКУЮ ПОДГОТОВКУ, ДИСЦИПЛИНУ

И УМЕЛЫЕ ДЕЙСТВИЯ В БОЯХ С НЕМЕЦКО-ФАШИСТСКИМИ ЗАХВАТЧИКАМИ

И ПРОЯВЛЕННЫЕ ПРИ ЭТОМ МУЖЕСТВО И ОТВАГУ НАГРАЖДАЮ ЗНАЧКОМ

"ОТЛИЧНЫЙ АРТИЛЛЕРИСТ".

1. Наводчика 4-й батареи ст. сержанта Мамедова Мухтара Мамедовича.

Командир 445 Гв. ПАП
Гв. подполковник /Соловьев/

Нач. штаба
Гв. капитан /Чистяков/

Верно: ПОМ. НАЧ. ШТАБА
Гв. Капитан /Плиско/

копия верна

17 3 47 г. Нач. отд. л/с Верещагина

Döyüşdə göstərdiyi igidliyə görə "Əla topçu" nişanı ilə təltif olunub

Мамедов
Мухтар
Мамед оглы

ЗА ХРАБРОСТЬ, СТОЙКОСТЬ И МУЖЕСТВО, ПРОЯВЛЕННЫЕ В БОРЬБЕ С НЕМЕЦКО-ФАШИСТСКИМИ ЗАХВАТЧИКАМИ, И В ОЗНАМЕНОВАНИЕ 40-ЛЕТИЯ ПОБЕДЫ СОВЕТСКОГО НАРОДА В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ 1941—1945 ГОДОВ

Указом ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР от 11 марта 1985 г.

НАГРАЖДЕН ОРДЕНОМ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ II степени

Секретарь Президиума Верховного Совета СССР

№ ордена 6275559

Ж № 335072

II dünya müharibəsində qələbəyə görə medalı ilə təltif olunub

„50 лет ВООРУЖЕННЫХ СИЛ СССР"

УДОСТОВЕРЕНИЕ

Мамедов
Мухтар Мамед оглы

В СООТВЕТСТВИИ С УКАЗОМ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР ОТ 26 ДЕКАБРЯ 1967 ГОДА НАГРАЖДЕН ЮБИЛЕЙНОЙ МЕДАЛЬЮ „50 ЛЕТ ВООРУЖЕННЫХ СИЛ СССР"

От имени ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР МЕДАЛЬ ВРУЧЕНА

„31 - октября 1968 года.

Военной комиссар Таузского р-

(должность, воинское звание и

М. П. подпись лица, вручившего медаль)

SSRİ silahlı qüvvələrinin 50 illiyi medalı ilə təltif olunub

„ДВАДЦАТЬ ЛЕТ ПОБЕДЫ В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ 1941—1945 гг."

1945 1965

УДОСТОВЕРЕНИЕ

Мамедов
Мухтар Мамед оглы

В СООТВЕТСТВИИ С УКАЗОМ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР

от 7 - МАЯ 1965 года

НАГРАЖДЕН ЮБИЛЕЙНОЙ МЕДАЛЬЮ „ДВАДЦАТЬ ЛЕТ ПОБЕДЫ В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ 1941—1945 гг."

От имени ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР МЕДАЛЬ ВРУЧЕНА

21 ФЕВ 1967 года

М. П. (должность, воинское звание и подпись лица, вручившего медаль)

II dünya müharibəsində qələbənin 20 illiyinə görə medalı ilə təltif olunub

„ТРИДЦАТЬ ЛЕТ ПОБЕДЫ
ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ
1941—1945 гг.“

1945
1975

УЧАСТНИКУ ВОЙНЫ

УДОСТОВЕРЕНИЕ

Мамедов
Мухтар Мамед оглы

в соответствии с Указом ПРЕЗИДИУМА
ВЕРХОВНОГО СОВЕТА СССР
от 25 апреля 1975 года
награжден юбилейной медалью

„ТРИДЦАТЬ ЛЕТ ПОБЕДЫ
В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ
ВОЙНЕ 1941—1945 гг.“

От имени ПРЕЗИДИУМА ВЕРХОВНОГО
СОВЕТА СССР медаль вручена
30 июня 75 года

М. П. Военный комиссар Таузского района
Подполковний Исмаилов
(должность и подпись лица, вручившего медаль)

II dünya müharibəsində qələbənin 30 illiyinə görə medalı ilə təltif olunub

„СОРОК ЛЕТ ПОБЕДЫ
В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ
1941—1945 гг.“

1945 1985

УЧАСТНИКУ ВОЙНЫ

УДОСТОВЕРЕНИЕ

Мамедов
Мухтар Мамед оглы

в соответствии с Указом ПРЕЗИДИУМА
ВЕРХОВНОГО СОВЕТА СССР
от 12 апреля 1985 года
награжден юбилейной медалью

„СОРОК ЛЕТ ПОБЕДЫ
В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ
ВОЙНЕ 1941—1945 гг.“

От имени ПРЕЗИДИУМА ВЕРХОВНОГО
СОВЕТА СССР медаль вручена
31 мая 19 85 года

М. П. Таузский райвоенком
(должность и подпись лица, вручившего медаль)

II dünya müharibəsində qələbənin 40 illiyinə görə medalı ilə təltif olunub

SSRİ silahlı qüvvələrinin 70 illiyi medalı ilə təltif olunub



Məmmədov Ədil Gülməmməd oğlu (758-ci), Gülməmmədov Murad Ələkbər oğlu (759-cu) və başqalarının itkin siyahısı



Gülməmmədov Əli Ələkbər oğlu (193-cü) və başqalarının itkin siyahısı



Məmmədov Şəmil Əsgər oğlu (236-cı), Məmmədov Rəsul İsa oğlu (237-ci) və başqalarının itkin siyahısı